RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 253 (8846) ÇƏRŞƏNBƏ AXŞAMI 23 noyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Zəfərin yaratdığı iqtisadi yüksəliş

## İlham Əliyevin yeni inkişaf strategiyası Azərbaycanın postmüharibə dövrü üçün mühüm yol xəritəsidir

**Qlobal iqtisadiyyatın üzləşdiyi ağır sınaq ilinin ardından əksər ölkələr yeni inkişaf strategiyalarını yeni dövrün çağırışlarına uyğun müəyyənləşdirirlər. Ekspertlər 2021-ci ili dünya iqtisadiyyatının tənəzzüldən çıxaraq bərpa dövrünə keçidi ili kimi səciyyələndirirlər.**

İkinci Qarabağ müharibəsindən şanlı Zəfərlə çıxan Azərbaycan da gələcək inkişaf strategiyasını regionda yaranmış yeni reallıqlar, yəni postmüharibə dövrünün çağırışlarına uyğun müəyyən edib. Qəbul etdiyi uzaqgörən qərarları ilə Azərbaycanı bütün böhranlardan üzüağ çıxaran Prezident İlham Əliyevin müəllifi olduğu “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” inkişaf strategiyası növbəti 10 il üzrə yüksəlişimizin yol xəritəsi hesab edilir.

### Strateji valyuta ehtiyatları 53 milyard dollara yüksəlib

Artan iqtisadi güc Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir böyük layihələrin təşəbbüskarı olmaq imkanı verib. Ölkə regional iqtisadiyyatın lokomotivi olaraq dünyanın enerji təhlükəsizliyinin etibarlı tərəfdaşlarından birinə çevrilib. Əldə edilən iqtisadi üstünlük, uzun illər formalaşdırılmış ictimai-siyasi və sosial-iqtisadi bünövrə ölkənin hərbi qüdrətini də yüksəldib. Bunun real təsdiqi İkinci Qarabağ müharibəsindəki şanlı Zəfərimizdir.

Düzdür, qlobal pandemiya bütün ölkələr kimi, Azərbaycan iqtisadiyyatına da mənfi təsir göstərib. Ancaq görülən qabaqlayıcı tədbirlər sayəsində ölkəmiz bu çətin dönəmdən az itki ilə çıxa bilib. Təkcə 2021-ci ilin 9 ayının iqtisadi göstəricilərinə nəzər yetirsək, əksər sahələrdə artımın şahidi olarıq.

Hazırda Azərbaycanın strateji valyuta ehtiyatları 53 milyard dollara çatıb. Bunun da ÜDM-ə nisbəti 110 faizdir və xarici dövlət borcunu 6 dəfədən çox üstələyir. Bu ilin 9 ayında ümumi daxili məhsul 4,8 faiz, qeyri-neft sektorunda isə 6,2 faiz artıb. ÜDM-də qeyri-neft sektorunun payı 64 faiz təşkil edir.

Sənayenin inkişafına da xüsusi diqqət yetirilir. Sənaye zonalarına 6,3 milyard manat investisiya qoyuluşu həyata keçirilib. Bu ilin 9 ayında qeyri-neft ixracı 41 faizədək artıb ki, bu, indiyədək müşahidə olunan ən yüksək göstəricidir. Qeyri-neft sənayesi məhsulları ixracı 1,6 dəfə artıb. Sənaye məhsulları ixracının 320 milyon dolları sənaye zonalarının payına düşür ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 dəfə çoxdur.

*Ardı 3-cü səh.*

## Multikultural Zəfər



Azərbaycanda yaşayan xalqlar arasındakı sarsılmaz birlik qələbəyə uzanan parlaq yolda daha da möhkəmləndi

Azərbaycan xalqının ən qürurlu, ən parlaq Zəfəri kimi əbədi qələbə imzası atdığı 44 günlük müharibə həm də milli birliyimizin təntənəsi kimi tarixə qızıl hərflərlə həkk olundu.

Ana torpağın işğalı ilə heç zaman barışmayan və Zəfərə, qalibiyyətə susamış xalq bir yumruğa çevrilərək düşmənin başı üzərində ildırım kimi çaxdı. Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri fəxarətlə “mən azərbaycanlıyam” deyərək bütün cəbhələrdə mənfur düşmənlə mübarizəyə qalxdı, doğma Vətənin bütövlüyü uğrunda əlindən gələn hər şeyi etmək üçün gecə-gündüz çalışdı.

*Bax: səh. 5*




## Türk dünyasından Azərbaycanın möhtəşəm qələbəsinə layiqli dəyər

İstanbuldakı Demokratiya və Azadlıq Adasından, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündən Azərbaycana nəzər salmaq, onun uğurlarına və əldə etdiyi nailiyyətlərə qardaş dövlətlərin gözü ilə baxmaq bu gün xüsusi əhəmiyyət kəcb edir.

Postmüharibə dövründə möhtəşəm qələbənin birillik yubileyini qeyd edən dövlətimiz uzaqdan, türkdilli dövlətlərin baxış bucağından necə görünür? Hərbi və iqtisadi uğurlarımız qardaş ölkələrin mizan-tərəzisində hansı xüsusi çəkiyə malikdir? Yəni bəzən bir dövlətin daxilində baş verənləri anlamaq üçün ona bir qədər kənardan baxmaq da faydalıdır.

*Bax: səh. 5*

## 2022-ci il Azərbaycanın inkişafında növbəti uğurlu dövr olacaq

Gələn ilin dövlət büdcəsi yüksəlişin davamlı olması üçün güclü maliyyə təminatı yaradır

Bu gün Milli Məclisdə 2022-ci ilin dövlət büdcəsi layhəsinin və büdcə zərfinə daxil olan digər məsələlərin ikinci oxunuşda müzakirəsi başlayır.

Öncə onu qeyd edək ki, bu illə müqayisədə gələn ilin dövlət büdcəsinin gəlirlərinin 5,5 faiz, xərclərinin isə 4,7 faiz çox proqnozlaşdırılması bir daha Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin düzgünlüyünü, aparılan islahatların uğurlu nəticələr verdiyini göstərir.

*Bax: səh. 4*

## Azərbaycanın azad edilmiş torpaqlarında görüləcək işlərlə bağlı Koreya Respublikasında təqdimat keçiriləcək





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Koreya Respublikasının Prezidenti yanında Şimali İqtisadi Əməkdaşlıq Komitəsinin nazir statusunda sədri Çong Soo Parkı qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev ölkələrimiz arasında mütəmadi təmasların olmasından məmnunluğunu ifadə edərək, bunu hər iki tərəfdə əməkdaşlığın dərinləşməsi üçün qarşılıqlı marağın göstəricisi kimi qiymətləndirdi. Dövlətimizin başçısı əminliyini bildirdi ki, ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olması bütün digər sahələrdə də əməkdaşlıq üçün müsbət təsirini göstərəcək.

İqtisadi əməkdaşlığa toxunan Prezident İlham Əliyev Koreya şirkətlərinin ölkəmizdə müxtəlif sahələrdə uğurla fəaliyyət göstərdiklərini bildirərək, böyük sənaye infrastrukturu layihələrinin icrasında bu şirkətlərin fəaliyyətini qeyd etdi və Bakının müasir memarlıq obrazında Koreya şirkətlərinin də payı olduğunu dedi.

Dövlətimizin başçısı yaxın vaxtlarda Azərbaycanın azad edilmiş torpaqlarında görüləcək işlərlə bağlı Koreya Respublikasında təqdimatın keçiriləcəyini vurğulayaraq bildirdi ki, bunda məqsəd Koreya şirkətlərinin azad olunmuş torpaqlarda işlərə cəlb edilməsindən ibarətdir. Azərbaycan Prezidenti işğal dövründə Ermənistanın müntəzəm olaraq şəhər və kəndlərimizi dağıtdığını qeyd etdi, Zəfərdən sonra həmin ərazilərdə genişmiqyaslı quruculuq işlərinin başlandığını dedi, Azərbaycana dost ölkələrin şirkətlərinin bu işlərə dəvət edildiyini bildirdi. Vurğuladı ki, Koreyada bu təqdimatın keçirilməsi də ölkələrimiz arasında dostluq münasibətlərini bir daha təsdiq edir.

Prezident İlham Əliyev Çong Soo Parkın səfərinin əlaqələrimizin inkişafına töhfə verəcəyinə əminliyini ifadə etdi.

Koreya Respublikasının Prezidenti yanında Şimali İqtisadi Əməkdaşlıq Komitəsinin nazir statusunda sədri Çong Soo Park xoş sözlərə görə minnətdarlığını bildirərək rəhbərlik etdiyi komitənin fəaliyyəti barədə məlumat verdi. Bildirdi ki, Koreyanın yeni şimal siyasəti 14 ölkəni əhatə edir və bu ölkələr sırasında Azərbaycan ən qərbdə yerləşən ölkədir. Koreya ilə Azərbaycan arasında bir çox oxşar cəhətlərin, o cümlədən geosiyasi mövqe cəhətdən oxşarlıqların olduğunu vurğulayan Çong Soo Park Koreyanın qitə və okeanları birləşdirən strateji yerdə, öz növbəsində Azərbaycanın isə müxtəlif beynəlxalq istiqamətləri birləşdirən nəqliyyat mərkəzində yerləşdiyini və Xəzər dənizi ətrafında nəqliyyat mərkəzi olduğunu məmnunluqla bildirdi.

Görüşdə Azərbaycanın “Şərq-Qərb”, “Şimal-Cənub” nəqliyyat dəhlizlərində rolu qeyd olundu, ikitərəfli və çoxtərəfli formatlarda, həmçinin iqtisadi zonalar arasında əməkdaşlıq imkanlarına toxunuldu. Müxtəlif sahələrdə, o cümlədən bərpa olunan enerji, nəqliyyat, logistika və turizm sahələrində əlaqələrin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Sonda xatirə şəkli çəkdirildi.

## Azərbaycanın dəmir yolu infrastrukturu da müasirləşir

**Yeni Biləcəri Lokomotiv Deposu nəqliyyatın bu növü qarşısındakı hədəflərə çatmaqda mühüm rol oynayacaq**

Polad magistralların istər dünyanın, istərsə də hər hansı bir ölkənin sosial-iqtisadi həyatındakı rolunun şərhə ehtiyacı yoxdur. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, koronavirus pandemiyasının ən çətin vaxtlarında belə nəqliyyatin bu növü ilə yükdaşımalarda problemlər yaranmamış, Azərbaycan iqtisadiyyatındakı ahəngdarlıq pozulmamışdır.

Təsadüfi deyil ki, son illər ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, nəhəng infrastruktur və nəqliyyat layihələrinin icrası istiqamətində böyük işlər görülür. Bunların sırasında dəmir yolu nəqliyyatına aid layihələr də əhəmiyyətli yer tutur.

*Bax: səh. 5*



# Prezident İlham Əliyev Portuqaliyanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Portuqaliya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Jaime Van Zellerin etimadnaməsini qəbul edib.



AZƏRTAC xəbər verir ki, səfir Jaime Van Zeller etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin yaxşı olduğu və beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlığın həyata keçirildiyi, ikitərəfli münasibətlər müstəvisində iqtisadi-ticarət, investisiya əlaqələrinin inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.

Söhbət zamanı Azərbaycan-Avropa İttifaqı münasibətlərinə toxunuldu, Azərbaycanın quruma üzv ölkələr və digər Avropa institutları ilə uğurlu əməkdaşlığının olduğu bildirildi. Görüşdə səfir Jaime Van Zellerin fəaliyyəti dövründə münasibətlərimizin çox müsbət şəkildə inkişafının davam edəcəyinə əminlik ifadə olundu.

# Azərbaycan və Nigeriya müxtəlif beynəlxalq təşkilatlarda fəal əməkdaşlıq edirlər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Nigeriya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Yakubu Santuraki Suleymanın etimadnaməsini qəbul edib.



AZƏRTAC xəbər verir ki, səfir Yakubu Santuraki Suleyman etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev ölkələrimizin müxtəlif beynəlxalq təşkilatlarda fəal əməkdaşlıq etdiyini dedi, işğal dövründə Nigeriyanın hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəklədiyini bildirdi. Dövlətimizin başçısı münaqişənin artıq hərbi-siyasi yollarla həllini tapdığını vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin 2023-cü ilə qədər uzadılması məsələsinə Nigeriyanın verdiyi dəstəyə görə minnətdarlığını bildirdi, bunu etimad və dostluq əlaməti kimi qiymətləndirdi. Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi üzv dövlətlərin hüquqlarını müdafiə etdiyini, beynəlxalq hüququ və ədaləti dəstəklədiyini vurğuladı. Azərbaycan Prezidenti İlham Əliyev Yakubu Santuraki Suleymanın səfirlik fəaliyyəti dövründə ikitərəfli münasibətlərimizin inkişafına töhfə verəcəyinə əminliyini bildirdi.

Səfir Yakubu Santuraki Suleyman Nigeriya Prezidenti Muhammadu Buharinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Nigeriya dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Səfir Nigeriya və Azərbaycanın həmişə ədalətin tərəfdarı olduqlarını dedi, ölkəsinin Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə, xüsusilə Azərbaycanla əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu bildirdi. Görüşdə ölkələrimiz arasında yaxşı siyasi əlaqələrin olduğu vurğulandı, ticari münasibətləri genişləndirmək üçün imkanların mövcudluğu qeyd edildi.

Azərbaycanın Qoşulmama Hərəkatının və İslam Əməkdaşlıq Təşkilatının üzv dövlətlərindən olan tələbələrin ölkəmizdə təhsil almaları üçün təqaüd ayırdığını və Nigeriyadan olan tələbələrin bu təqaüd proqramı çərçivəsində Azərbaycanın ali məktəblərində təhsil aldıqları vurğulandı.

# Uqanda rəhbərliyi Azərbaycanın bu ölkəyə investisiya yatırmasında maraqlıdır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Uqanda Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Muhammad Tezikuba Kisambiranın etimadnaməsini qəbul edib.



AZƏRTAC xəbər verir ki, səfir Muhammad Tezikuba Kisambira etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Görüşdə ölkələrimiz arasında əlaqələrin yaxşı səviyyədə və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin olduğu bildirildi. Həmçinin Qoşulmama Hərəkatı çərçivəsində fəal əməkdaşlığın həyata keçirildiyi vurğulandı. Bu baxımdan Prezident İlham Əliyev Uqanda Respublikasının Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin 2023-cü ilə qədər uzadılması ilə bağlı verilən qərara göstərdiyi dəstəyə görə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, bu hərəkatın sədri kimi Azərbaycan üzv dövlətlər arasında birliyin gücləndirilməsi, xüsusilə COVID-19 ilə mübarizədə praktiki dəstəyi təmin etmək üçün fəal iş aparıb. Azərbaycan Prezidenti ölkəmizin bundan sonra da Qoşulmama Hərəkatına üzv olan ölkələr arasında əlaqələrin gücləndirilməsi istiqamətində səylərini davam etdirəcəyini vurğuladı. Prezident İlham Əliyev bildirib ki, artıq Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ("ASAN xidmət") ilə Uqandanın müvafiq qurumu arasında anlaşma memorandumu imzalanıb. Qeyd olunub ki, "ASAN xidmət"in Uqandada yaradılması prosesinə dəstək istiqamətində ölkəmizdəki müvafiq qurumlar tərəfindən iş aparılır.

Söhbət zamanı Azərbaycanın UNESCO-nun xətti ilə Keniya, Tanzaniya və Uqandada gənc qızların təhsilini nəzərdə tutan etimad fondu layihəsinə dəstəyi yüksək qiymətləndirildi.

Uqanda Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Muhammad Tezikuba Kisambira Uqanda Prezidenti Yoveri Museveninin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev Uqanda Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Uqanda dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Muhammad Tezikuba Kisambira bildirdi ki, ölkəmizə səfir təyin olunarkən Uqanda Prezidenti ona beynəlxalq aləmdə ölkələrimiz arasında siyasi dəstəyi gücləndirmək barədə tapşırıq verib. Səfir Prezident İlham Əliyev üçün uyğun vaxtda Uqandaya səfər etməklə bağlı ölkəsinin rəhbərliyinin dəvətini dövlətimizin başçısına çatdırdı. O, həmçinin vurğuladı ki, Uqanda rəhbərliyi Azərbaycanın bu ölkəyə investisiya yatırmasında maraqlıdır. Diplomat dedi ki, Uqanda Afrika qitəsində turizm sahəsində ölkəmizin təmsil olunması işinə töhfə verməyə hazırdır.

# Azərbaycan - Finlandiya əlaqələrinin genişləndirilməsi üçün imkanlar mövcuddur

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Finlandiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Kirsti Narinenin etimadnaməsini qəbul edib.



AZƏRTAC xəbər verir ki, səfir Kirsti Narine Finlandiya Prezidenti Sauli Niinistönün salamlarını dövlətimizin başçısına çatdırdı və etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Azərbaycan Prezidenti Finlandiya Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Finlandiya dövlətinin başçısına çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev Finlandiya Prezidenti ilə ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində görüşlərini xatırlatdı. Dövlətimizin başçısı regionda vəziyyətin dəyişdiyini və regional əməkdaşlıq üçün geniş imkanların yarandığını vurğuladı.

Səfir Kirsti Narine ölkələrimiz arasında çoxlu oxşarlıqların olduğunu dedi, əlaqələrimizi genişləndirmək üçün imkanların mövcudluğunu qeyd etdi. Səfir Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyini yüksək qiymətləndirdi.

Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın, regionda sülhün və sabitliyin gücləndirilməsi, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Azərbaycan Respublikasının Müqəddəs Taxt-Tacda Səfirliyinin təsis edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Müqəddəs Taxt-Tacda Səfirliyi təsis edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 oktyabr 2021-ci il*

## Azərbaycan Respublikasının Müqəddəs Taxt-Tacda Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Müqəddəs Taxt-Tacda Səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikasının Müqəddəs Taxt-Tacda Səfirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini həll etsin;

1.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Səfirliyin strukturunu və ştat cədvəlini təsdiq etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 noyabr 2021-ci il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı arasında FAO-Azərbaycan Tərəfdaşlıq Proqramı haqqında" Sazişin qüvvədəolma müddətinin uzadılmasına dair Protokol"un təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2021-ci il iyulun 14-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı arasında FAO-Azərbaycan Tərəfdaşlıq Proqramı haqqında" Sazişin qüvvədəolma müddətinin uzadılmasına dair Protokol" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 oktyabr 2021-ci il*

# Azərbaycanın xarici işlər nazirinə TÜRKSOY-un "Nizami xatirə nişanı" təqdim olunub

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov noyabrın 22-də Beynəlxalq Türk Mədəniyyət Təşkilatının (TÜRKSOY) Baş katibi Düsen Kaseinov ilə görüşüb.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, tərəflər Azərbaycan və TÜRKSOY arasında faydalı əməkdaşlıq və təşkilatın türk xalqlarının ortaq mədəniyyətinin təşviqi istiqamətində gördüyü işlər üzrə ümumi fikir mübadiləsi aparıblar.

TÜRKSOY-un Baş katibi Azərbaycanda "Nizami ili"nin elan olunması ilə əlaqədar təşkilat tərəfindən həyata keçirilən tədbirlər barədə məlumat verib və dahi şair və mütəfəkkir Nizami Gəncəvinin yaradıcılığına həsr olunmuş tədbirlərin gələn ilin mart ayınadək davam edəcəyini söyləyib.

Baş katib Düsen Kaseinov TÜRKSOY tərəfindən nəşr edilmiş və Nizami Gəncəvi yaradıcılığına həsr olunmuş kitabı və "Nizami xatirə nişanı"nı nazir Ceyhun Bayramova təqdim edib.

# Azərbaycanla Koreya Respublikası arasında əməkdaşlıq məsələləri müzakirə edilib

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov noyabrın 22-də Koreya Respublikasının Prezidenti yanında Şimali İqtisadi Əməkdaşlıq Komitəsinin nazir statusunda sədri Çong Soo Park ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Koreya Respublikası ilə ölkəmiz arasındakı mövcud əməkdaşlıq səviyyəsindən məmnunluq ifadə olunub, yeni istiqamətlər üzrə əməkdaşlığın perspektivləri müzakirə edilib.

Görüşdə tərəflər Azərbaycan ilə Koreya Respublikası arasında əməkdaşlıq gündəliyinin bir çox məsələləri üzrə, xüsusilə də energetika, infrastruktur, nəqliyyat, informasiya texnologiyaları, alternativ enerji, investisiya, tikinti, təhsil sahələrində əməkdaşlığın inkişaf etdirilməsi ətrafında fikir mübadiləsi aparıblar.

Koreya Respublikasının iqtisadi əməkdaşlıq baxımından ölkəmiz tərəfindən prioritet ölkə kimi qiymətləndirildiyini qeyd edən nazir Ceyhun Bayramov dövlət səviyyəsində qarşılıqlı səfərlərin intensivliyinin artırılmasının mövcud münasibətlərə daha da təkan verilməsi baxımından mühüm əhəmiyyətə malik olduğunu bildirib.

Sonra nazir Ceyhun Bayramov bir il bundan əvvəl baş vermiş Vətən müharibəsi nəticəsində Azərbaycanın öz ərazi bütövlüyünü təmin etdiyi və nəticədə bölgədə yaranmış reallıqların yeni nəqliyyat bağlantılarının inkişafı üçün əlverişli şərait yaratdığı barədə həmkarını məlumatlandırıb. Bu xüsusda qarşı tərəfə Azərbaycanın təşəbbüsü və iştirakı ilə "Şərq-Qərb", "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində həyata keçirilən infrastruktur layihələri haqqında məlumat verilib, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı quruculuq işlərinə diqqət çəkilib. Şimali İqtisadi Əməkdaşlıq Komitəsinin nazir statusunda sədri Çong Soo Park Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə keçirdiyi görüşü məmnunluqla qeyd edərək, görüş zamanı gələcək əməkdaşlıq planlarına dair prioritet məsələlərin müzakirə olunduğunu və bunun ölkələrimiz arasındakı əməkdaşlığın yeni mərhələyə yüksəlməsinə təkan verəcəyinə inamını ifadə edib.

Görüş zamanı tərəflər habelə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Azərbaycan Respublikası Baş nazirinin müavini İranın xarici işlər naziri ilə görüşüb

Azərbaycan Respublikası Baş nazirinin müavini, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev İrana səfəri çərçivəsində İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahianla görüşüb.



Hüseyn Əmir Abdullahian Azərbaycan torpaqlarının işğaldan azad olunması və Zəfər gününün ildönümü münasibətilə təbriklərini çatdırıb, İranın Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu bildirib. Azərbaycanın ərazi bütövlüyünə İranın davamlı dəstəyini və prinsipial mövqeyini vurğulayan Əmir Abdullahian İran şirkətlərinin işğaldan azad olunmuş Azərbaycan torpaqlarının yenidən qurulması və bərpası işlərində iştirak etməyə hazır olduğunu bildirib.

AZƏRTAC xəbər verir ki, görüşdə iki ölkə arasında fəaliyyət göstərən Hökumətlərarası Dövlət Komissiyasının əhəmiyyəti qeyd olunub və komissiyanın aktiv fəaliyyətindən məmnunluq ifadə edilib.

İki ölkə arasında iqtisadi-ticari əlaqələrin, neft-qaz, turizm, nəqliyyat, energetika, tranzit daşımaları, birgə sənaye və investisiya layihələri, informasiya kommunikasiya texnologiyaları, kənd təsərrüfatı, humanitar və digər sahələrdə əməkdaşlığın davamlı inkişafı üçün səylərin daha da artırılması və görüşlərin keçirilməsinin əhəmiyyəti qeyd olunub. Görüşdə həmçinin regiondakı vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Azərbaycan nümayəndə heyəti İranın yol və şəhərsalma naziri ilə görüşüb

Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev Tehrana birgünlük səfəri çərçivəsində İranın yol və şəhərsalma naziri, İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının həmsədri Rüstəm Qasemi ilə görüşüb, iqtisadi-ticari əlaqələrin mövcud vəziyyəti və potensialı haqqında müzakirələr aparıb. AZƏRTAC xəbər verir ki, görüşdə iki ölkə arasında əlaqələrin davamlı inkişafı üçün səylərin daha da artırılmasının əhəmiyyəti vurğulanıb, neft-qaz, nəqliyyat, energetika, tranzit daşımaları, birgə sənaye və investisiya layihələri, informasiya-kommunikasiya texnologiyaları, kənd təsərrüfatı, humanitar və digər sahələrdə mövcud olan imkanlar və gələcək perspektivlər nəzərdən keçirilib, qarşılıqlı səfərlərin və görüşlərin faydalılığı qeyd olunub.



# Milli Məclis Sədrinin müavini Qazaxıstanda beynəlxalq parlament konfransında iştirak edib

Milli Məclis Sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri, Azərbaycan-Qazaxıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Adil Əliyev Qazaxıstanın Birinci Prezidenti Gününə həsr olunmuş "Elbası. Müstəqillik. Parlament" adlı beynəlxalq parlament konfransında iştirak edib.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Elbası Nursultan Nazarbayevin ümumxalq seçkisi ilə Qazaxıstanın birinci prezidenti seçilməsinin 30 illiyi ərəfəsində təşkil edilmiş beynəlxalq tədbirdə çıxış edən Adil Əliyev ölkələrimiz arasındakı dostluq münasibətlərinin tarixi kökləri və bu günü barədə danışıb. Bildirib ki, ölkələrimiz arasında Qazaxıstanın birinci Prezidenti - Elbası Nursultan Nazarbayev və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş mehriban qonşuluq, qarşılıqlı etimad və strateji tərəfdaşlıq münasibətlərinin inkişafı üzrə uzunmüddətli strategiya bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Qeyd olunub ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası ikitərəfli münasibətlərimizdə xüsusi rol oynayır. Türk Şurasının adının dəyişdirilərək Türk Dövlətləri Təşkilatı adlandırılması isə, şübhəsiz ki, təşkilatın statusunu daha da yüksəldəcək.

Milli Məclis Sədrinin müavini iki ölkə arasındakı münasibətlərin inkişafında Türkdilli Ölkələrin Parlament Assambleyasının xüsusi rolunu da qeyd edib. Bildirilib ki, Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi nümayəndə heyətinin TÜRK PA-nın 10-cu plenar iclasında iştirak etmək üçün bu ilin sentyabrında Türküstan şəhərinə işgüzar səfəri, eləcə də Nur-Sultan şəhərinə rəsmi səfəri ölkələrimizin parlamentlərarası əməkdaşlığının inkişafına xüsusi təkan verib.

Beynəlxalq konfransdan sonra Adil Əliyev Qazaxıstan Parlamenti Məclisinin Sədri Nurlan Niqmatulinlə görüşərək ikitərəfli parlamentlərarası əməkdaşlıq barədə müzakirələr aparıb.

# Zəfərin yaratdığı iqtisadi yüksəliş

## İlham Əliyevin yeni inkişaf strategiyası Azərbaycanın postmüharibə dövrü üçün mühüm yol xəritəsidir

*Əvvəli 1-ci səh.*

Əgər 2017-2020-ci illərdə qeyri-neft sənayesində əlavə dəyərin orta illik artım tempi 9,3 faiz təşkil edibsə, bu ilin 9 ayında qeyri-neft sənayesində əlavə dəyər 20 faizdən çox artıb.

Əlbəttə ki, bütün bu uğurları İlham Əliyevin son 18 ildə reallaşdırdığı genişmiqyaslı layihələr şərtləndirib. Belə ki, iqtisadi təşəbbüslərin gerçəkləşdirilməsi nəticəsində ötən müddətdə iqtisadiyyat 3 dəfədən çox artıb, müstəqilliyin bərpasından bu günədək ölkə iqtisadiyyatına 300 milyard dollara yaxın investisiya yatırılıb. Bu da bir daha təsdiq edir ki, xarici investorların ölkəmizə olan güclü marağı getdikcə artır. Zəngəzur dəhlizinin açılması, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafı da təsdiq edir ki, tezliklə Azərbaycana maliyyə yatırımı edən investorların sayı artacaq.

### Qeyri-neft sənayesinin inkişafı prioritet olaraq qalır

Artıq gələn il üçün də qarşıya qoyulan hədəflər müəyyənləşdirilib. Postmüharibə dövründə iqtisadiyyatın canlandırılması, qlobal böhrandan ən çox təsirlənmiş sahələrin bərpası və dayanıqlılığı təmin ediləcək.

Xüsusən də sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi, qeyri-neft sənayesinin ixrac potensialının artırılması, elm tutumlu və innovativ istehsalın genişləndirilməsi məqsədlərinə nail olunması üçün sənaye istehsalının dövlət tərəfindən dəstəklənməsi tədbirlərinin genişləndirilməsi davam etdiriləcək.

Ümumiyyətlə, Azərbaycanda sənayeləşmə prosesinin ardıcıl davam etdirilməsi, həmçinin qeyri-neft sənayesinin inkişafı Prezident İlham Əliyevin iqtisadiyyatın şaxələndirilməsi siyasətinin əsas istiqamətlərindəndir. Dünyada pandemiya və iqtisadi-maliyyə problemlərinə baxmayaraq, ölkəmizdə bu istiqamətdə çox böyük işlər görülür. İqtisadiyyatın digər sahələri ilə yanaşı, sənayenin inkişafına xüsusi önəm verilir, mövcud təbii və iqtisadi resursların istehsala cəlb edilməsi, qabaqcıl texnologiyaların daha geniş tətbiqi üçün sistemli tədbirlər həyata keçirilir. Sənayeləşmə siyasətinə uyğun olaraq, ölkəmizdə daxili tələbatın ödənilməsində yerli məhsulların payını əhəmiyyətli dərəcədə artıran və ixrac imkanlarımızı genişləndirən yüzlərlə müasir sənaye müəssisəsi, yeni istehsal sahələri yaradılır.

Hazırda Azərbaycanda 5 sənaye parkı fəaliyyət göstərir. Dövlət başçısının bu ilin mayında imzaladığı fərmanla yaradılan və sayca 6-cı olan Ağdam Sənaye Parkının tikintisinə başlanılıb.

Dövlət başçısının yeni inkişaf strategiyasına uyğun olaraq həyata keçirilən çoxşaxəli islahatlar, kompleks tədbirlər sayəsində əldə olunan bütün bu uğurlar onu deməyə əsas verir ki, Azərbaycan iqtisadiyyatı 2022-ci ildə də inkişaf dinamikasını qoruyub saxlayacaq və iqtisadi artımın müsbət meyilləri davam edəcək.

Böyük Qələbədən sonra postmüharibə dövrünün reallıqlarını dəyərləndirən Prezident İlham Əliyev bütün çıxışlarında regionda əsas inkişaf istiqamətlərini müəyyənləşdirməklə yeni yol xəritəsinin konturlarını təqdim edib.

Həmçinin bölgədə uzunmüddətli sülhün təmin edilməsinin istiqamətlərini də göstərərək ümumilikdə regionun gələcək inkişafı üçün bütün imkanların mövcud olduğunu söyləyir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# <u>*Əli HÜSEYNLİ:*</u> "Yeni reallıqlar hüquqi islahatların aktuallığını artıran amillərdir"

Son illər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə ölkəmizdə çağdaş dünyanın yeni çağırışlarına uyğun geniş islahatlara start verilib. Xüsusən də dövlət quruculuğu sahəsində daha mütəşəkkil idarəetmə formasının yaradılmasını hədəfləyən sistemli dəyişikliklər və struktur islahatları cəmiyyət və dövlət həyatında mühüm yeniliklər vəd edir.

Bu məsələlərlə bağlı AZƏRTAC-ın aşağıdakı suallarını Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli cavablandırıb.



*- Əli müəllim, son illər ərzində Azərbaycanda həyata keçirilən məhkəmə-hüquq islahatları ilə bağlı nə deyə bilərsiniz?*

- Əvvəlcə onu söyləyim ki, hüquq ictimaiyyətinin noyabrın 22-də qeyd etdiyi ədliyyə işçilərinin peşə bayramı günü ilə bağlı bu mövzunu gündəmə gətirməyiniz hüquqi islahatların əhəmiyyətinə diqqətin yönəldilməsi baxımından təqdirəlayiq təşəbbüsdür.

Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji istiqamətlərə uyğun olaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ədliyyəsi ölkədə geniş vüsət alan məhkəmə-hüquq islahatları çərçivəsində daha da müasirləşərək yeni-yeni uğurlara imza atmaqdadır. Birmənalı olaraq deyə bilərik ki, hazırda ölkəmizdə məhkəmə-hüquq islahatları keyfiyyətcə yeni mərhələyə keçmişdir. Nəzərdə tutulan təkmilləşmə prosesi son dövrlər bütövlükdə ölkə üzrə həyata keçirilən geniş islahatlar kursunun tərkib hissəsidir. Bu sahədə daha yüksək nəticələrə nail olmaq məqsədilə Azərbaycan Prezidenti tərəfindən imzalanmış "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanın mühüm siyasi əhəmiyyətə malik olduğunu xüsusi qeyd etmək istərdim. Çünki Azərbaycanda normativ-hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində həyata keçirilən siyasi kursun keyfiyyətcə yeni mərhələsinin başlanğıc nöqtəsi olan bu sənəd hüquqi islahatların "yol xəritəsi" kimi xüsusi önəm daşıyır. Eyni zamanda çağdaş dövrün tələblərindən irəli gələn həmin fərman bütövlükdə ədliyyə və müasir məhkəmə-hüquq sisteminin modernləşməsinə ciddi təkan verib. Fərmanda qeyd olunur: "Ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi üçün bütün sahələrdə həyata keçirilən islahatlar məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasını və bu sahədə islahatların dərinləşdirilməsini zəruri edir". Başqa sözlə, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyümüzün təmin edilməsi, 44 günlük Vətən müharibəsindən sonra bölgədə yaranmış yeni reallıqlar bütün sahələrdə olduğu kimi, bu istiqamətdə də mütərəqqi formatların tətbiqini şərtləndirir.

Fərmanın icrası ilə bağlı bu sahədə kompleks qanunvericilik və praktiki tədbirlər görülür. Yeni regional inzibati və kommersiya məhkəmələri təsis edilib, vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün işlək mexanizmlər yaradılıb, məhkəmələrin və hakimlərin təminatı gücləndirilib. Ədliyyə sahəsində infrastrukturun müasirləşdirilməsi üzrə görülən tədbirlər çərçivəsində yeni məhkəmə bina və komplekslərinin inşası, onların ən müasir İKT qurğuları ilə təchizi xüsusi yer tutur. Bu il sentyabrın 3-də Prezident İlham Əliyevin iştirakı ilə Azərbaycan hökumətinin Dünya Bankı ilə birgə həyata keçirdiyi "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində inşa olunmuş Sumqayıt Məhkəmə Kompleksinin açılışı ölkə rəhbərliyinin bu sahəyə diqqət və qayğısının bariz nümunəsidir. Bütün bunlar onu göstərir ki, dövlət başçısının vurğuladığı kimi, Azərbaycanda hüquqi dövlət quruculuğu prosesi uğurla gedir. Artıq Azərbaycanda hüquqi dövlət qurulub, qanunun aliliyi təmin edilib və məhkəmə sistemi dünyada mövcud olan ən mütərəqqi təcrübəyə əsaslanır.

Təqdirəlayiq haldır ki, açılışdan sonra Sumqayıt Məhkəmə Kompleksi ilə ictimaiyyətin tanışlığı üçün də geniş şərait yaradılıb. Bu il sentyabrın 24-də Ədliyyə Nazirliyi və Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi tərəfindən Sumqayıt Məhkəmə Kompleksində "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sisteminin inkişafı: çağırışlar, islahatlar və innovasiyalar" mövzusunda keçirilmiş ictimai təqdimat bu baxımdan əhəmiyyətli tədbir olub.

*- Təqdimat çərçivəsində müzakirə olunan məsələlərin aktuallığı baxımından bu tədbir ölkənin hüquq ictimaiyyətinin və medianın diqqətini cəlb etdi. Bununla bağlı hansı məqamlara daha çox üstünlük verməyi vacib sayırsınız?*

- Hesab edirəm ki, digər sahələrdə olduğu kimi, hüquqi islahatlar da qanunun aliliyinin daha səmərəli şəkildə təmin edilməsini hədəf seçir və geniş mənada insan amilini ön mövqeyə çəkir. Təbiidir ki, hüquqi islahatların müasir şəraitə uyğunlaşdırılması zamanın tələbi kimi ortaya çıxır. Başqa sözlə, yeni reallıqlar hüquqi islahatların aktuallığını artıran amillərdir. Bu çərçivədə həyata keçirilən tədbirlər son nəticədə insan hüquqlarının, hüquqi yardımların əlçatanlığının rahat şəkildə təmin olunmasına yönəlib. Məsələn, artıq bu gün on minlərlə normativ sənədi ehtiva edən "Hüquqi aktların vahid elektron bazası" vasitəsilə hər kəs ödənişsiz olaraq ani rejimdə qanunvericilik aktlarını əldə edə bilir. İşğaldan azad olunmuş ərazilərdə dayanıqlı məskunlaşmanın təmin edilməsi üçün hüquqi baxımdan heç bir maneə yoxdur. Bundan əlavə, bələdiyyə fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə xüsusi portal fəaliyyət göstərir.

"Elektron məhkəmə" informasiya sisteminin prokurorluq orqanlarına inteqrasiyası ədalət mühakiməsinin daha səmərəli və çevik həyata keçirilməsinə imkan yaradıb. Böyük sosial əhəmiyyətə malik "ASAN xidmət", DOST mərkəzləri əhaliyə operativ hüquqi xidmətlərin yüksək səviyyədə təşkil olunmasına kömək edən və daim təkmilləşən mütərəqqi layihələrdir. Ölkəmizin xaricdəki konsulluqlarının "e-notariat" sistemi vasitəsilə xidmətlər göstərməsi soydaşlarımızın sənədləşmə ilə bağlı problemlərinin həllinə yardım edir.

*- Məhkəmə-hüquq sisteminin inkişafına və şəffaflığın təmin olunmasına müsbət təsir göstərən amillər barədə fikrinizi bilmək istərdik.*

- Belə amillər çoxdur. Qanunun aliliyinin təmin edilməsi baxımından məhkəmə-hüquq sistemində şəffaflığa nail olunması milli prioritet hesab edilir və məhkəmə-hüquq islahatlarının aparılmasının xüsusi önəmini ortaya qoyur. Bu istiqamətdə konkret səmərəli tədbirlər həyata keçirilir. Məsələn, son illər ərzində məhkəmə infrastrukturunun müasirləşdirilməsi çərçivəsində yüksək texnoloji - "hi-tech" məhkəmə binaları tikilib. "Elektron məhkəmə"nin və onun tərkib hissəsi olan "Elektron icra" sisteminin tətbiqi ədalət mühakiməsinin səmərəsinin artırılması baxımından özünü doğrultmuş layihələrdəndir. Bütün bu tədbirlərin nəticəsi olaraq mülki və kommersiya işləri üzrə məhkəmə qərarlarının sabitliyinin yüksək olması və kassasiya instansiyasına, yəni Ali Məhkəməyə iddiaçıların və ya cavabdehlərin müraciət faizinin azalma tendensiyası məhkəmələrə artan inamın, ictimai etimadın əyani təzahürüdür. Məhkəmə-hüquq sistemindəki ardıcıl islahatlar kursu ədalət mühakiməsinin həyata keçirilməsində aşkarlığın və qərəzsizliyin daha dolğun şəkildə təmin edilməsi üçün möhkəm zəmindir. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə riayət edilməsinin mütəmadi monitorinqinin aparılması, tətbiq edilən rəqəmsal innovasiyaların inkişaf etdirilməsi və digər aktual məsələlər müəyyənləşdirilmiş konkret hədəflərə nail olmaq üçün görülən tədbirlər sırasındadır.

*- Sizcə, bu islahatların həyata keçirilməsində qanunverici orqan kimi, Milli Məclisin hakimiyyətin digər qolları ilə qarşılıqlı əlaqəsi qənaətbəxşdirmi? Ümumiyyətlə, bu kontekstdə parlamentin rolunu necə dəyərləndirərdiniz?*

- Ölkəmizdə həyata keçirilən hüquqi islahatlar qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları arasında səmərəli əməkdaşlığın inkişafına, qarşılıqlı etimadın möhkəmləndirilməsinə xidmət edir. Milli Məclis Hüquq siyasəti və dövlət quruculuğu komitəsi vasitəsilə məhkəmə-hüquq sistemi ilə çox sıx əməkdaşlıq həyata keçirir ki, bu da yeni qanun layihələrinin müzakirəsinə və qəbuluna öz töhfəsini verir. Məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində ümumi məqsədlərə yönəlmiş birgə fəaliyyətin daha bir nümunəsi parlament nümayəndəsinin Məhkəmə-Hüquq Şurasında təmsil olunmasıdır. Cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirlərin davam etdirilməsi ilə bağlı ölkə Prezidentinin tapşırıq və tövsiyələri ictimaiyyətin böyük marağına səbəb olmaqla xüsusi önəm kəsb edir. Milli Məclis bununla bağlı hüquqi əsasların formalaşdırılmasına və bu məsələlərə dair qanunvericilik təşəbbüsü subyektləri tərəfindən daxil olmuş təkliflərə xüsusi diqqətlə yanaşır. Son illər ərzində müvafiq qanunlarda edilmiş dəyişikliklərə əsasən 35 əməl tamamilə və ya cinayət əməlinə görə məsuliyyət yaradan hədd artırılmaqla dekriminallaşdırılmış, bəzi cinayətlərə görə zərərçəkmiş şəxslə barışma və ziyanın ödənilməsi şərti ilə cinayət məsuliyyətindən azadetmə müəyyən olunmuş, azadlıqdan məhrumetmə cəzasının tətbiqi hallarının azaldılması məqsədilə 30 maddənin sanksiyasına alternativ cəzalar, o cümlədən cərimə, islah işləri və azadlığın məhdudlaşdırılması cəzaları daxil edilmiş, hərbi xidmət əleyhinə olan cinayətlərə görə cəzalar yüngülləşdirilmişdir.

Prezidentin haqqında danışdığımız 2019-cu il 3 aprel tarixli Fərmanında mediasiya prosesinin tətbiqi ilə bağlı maarifləndirmə və təşviqat tədbirlərinin həyata keçirilməsi zərurəti öz əksini tapmışdır. Ötən müddət ərzində Milli Məclis tərəfindən "Mediasiya haqqında" 2019-cu il martın 29-da qəbul olunmuş Azərbaycan Respublikası Qanununun təkmilləşdirilməsi və onun digər qanunlara uyğunlaşdırılması məqsədilə bir neçə dəyişiklik edilmişdir.

Fərmanın icrası çərçivəsində kommersiya məhkəmələrinin təşkili, məhkəmə qərarlarının icrası işinin və məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi, vahid məhkəmə təcrübəsinin formalaşdırılması və digər məsələlərlə bağlı qabaqcıl beynəlxalq təcrübə öyrənilmiş, həmçinin ictimaiyyətin təklifləri və rəyləri nəzərə alınmaqla çoxsaylı normativ-hüquqi aktın layihəsi işlənib hazırlanmış, dövlət başçısının qanunvericilik təşəbbüsü əsasında Milli Məclisə təqdim etdiyi bir çox yeni qanunlar qəbul olunmuşdur.

"Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli Qanununun tətbiqi "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanda verilmiş tapşırıq və tövsiyələrə müvafiq olaraq müasir dövrün tələblərinə cavab verən ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək, məhkəmə icraatında müasir informasiya texnologiyalarının tətbiqinin üstünlüklərindən istifadə etmək, ədalət mühakiməsi mexanizmlərinin daha səmərəli fəaliyyətini təmin etmək kimi məqsədləri hədəfləyir.

Mütəmadi qaydada təşkil olunan və qeyri-hökumət təşkilatlarının, beynəlxalq təsisatların, hüquqşünasların, elmi ictimaiyyətin nümayəndələrinin də cəlb olunduğu ictimai müzakirələr, dinləmələr və müxtəlif layihələr bu sahədə qanunvericilik, icra və məhkəmə orqanlarının birgə fəaliyyətini daha da zənginləşdirir. Bu, hədəflərin düzgün müəyyənləşdirilməsi üçün mühüm vasitədir.

Hakimiyyət qollarının qarşılıqlı səmərəli fəaliyyətini təsdiq edən daha bir nümunə Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü əsasında Milli Məclisin qəbul etdiyi "8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" 2021-ci il 5 noyabr tarixli qərarın bu gün ədliyyə orqanları tərəfindən uğurla icra olunmasıdır.

Bütün bunlar əminliklə onu deməyə əsas verir ki, hüquqi dövlət quruculuğu prosesində islahatların reallaşması son illər Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi kursun prioritet istiqamətlərindən biridir. Bu məqsədlə qəbul olunmuş çox mühüm qərarlar və onların icrası üzrə görülən genişmiqyaslı işlər isə qanunun aliliyini və insan hüquqlarının etibarlı müdafiəsini təmin edən mühüm siyasi addım kimi dəyərləndirilməlidir.

*- Əli müəllim, artıq Azərbaycanın ədliyyə orqanları işğaldan azad edilmiş ərazilərdə də fəaliyyət göstərəcək...*

- Bəli, bütün xalqımız kimi hüquq ictimaiyyəti də şərəfli tarixi günləri yaşamaqdadır. Ölkəmizdə ədliyyə sisteminin təşəkkülü və ümumiyyətlə, Ədliyyə Nazirliyinin əsaslı surətdə təsis edilməsi isə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, onun Azərbaycana rəhbərlik etdiyi dövrdə - 1970-ci ildə Ədliyyə Nazirliyi dövlət strukturu kimi bərpa olunmuş, bununla da ölkəmizin ədliyyə tarixində yeni mərhələ başlanmışdır. Ümummilli Liderimizin 2000-ci il 11 noyabr tarixli Sərəncamına əsasən, noyabrın 22-si hər il ölkəmizdə ədliyyə işçilərinin peşə bayramı günü kimi dövlət səviyyəsində qeyd olunur.

Dövlət müstəqilliyimizin bərpasından sonra böyük və zəngin fəaliyyət yolu keçmiş Azərbaycan ədliyyəsi bu gün də Ulu Öndər Heydər Əliyevin dövlətçilik amallarına və ölkəmizin qüdrətlənməsi naminə milli dövlət quruculuğunda ədliyyə fəaliyyətinə böyük önəm verən Prezident İlham Əliyevin siyasi kursuna daim sadiqlik nümayiş etdirməkdədir. Fürsətdən istifadə edib qanunçuluğa və dövlətçiliyə xidməti özünün vəzifə və vətəndaşlıq borcu sayan bütün ədliyyə işçilərini peşə bayramı və Azərbaycan ədliyyəsinin 103-cü ildönümü münasibətilə təbrik edir, şərəfli və məsuliyyətli fəaliyyətlərində yeni uğurlar arzulayıram.

Qürurverici haldır ki, ədliyyə işçiləri öz peşə bayramlarını Azərbaycanın ərazi bütövlüyünün təmin olunduğu tarixi bir vaxtda qeyd edirlər. İşğaldan azad edilmiş ərazilərdə ədliyyə orqanlarının yaradılması onların yeni reallıqlar şəraitində bərpa və quruculuq proseslərində fəal iştirakının bariz nümunəsidir.

# 2022-ci il Azərbaycanın inkişafında növbəti uğurlu dövr olacaq

## Gələn ilin dövlət büdcəsi yüksəlişin davamlı olması üçün güclü maliyyə təminatı yaradır

Bu gün Milli Məclisdə 2022-ci ilin dövlət büdcəsi layhəsinin və büdcə zərfinə daxil olan digər məsələlərin ikinci oxunuşda müzakirəsi başlayır. Öncə onu qeyd edək ki, bu illə müqayisədə gələn ilin dövlət büdcəsinin gəlirlərinin 5,5 faiz, xərclərinin isə 4,7 faiz çox proqnozlaşdırılması bir daha Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin düzgünlüyünü, aparılan islahatların uğurlu nəticələr verdiyini göstərir. Xatırladaq ki, 2022-ci il üçün dövlət büdcəsinin gəlirləri 26 milyard 816 milyon manat, xərcləri isə 29 milyard 879 milyon manat proqnozlaşdırılır.



### Gəlir və xərclərlə bağlı proqnozlar məqbuldur

Azərbaycanın dövlət büdcəsi hər il tərtib olunarkən diqqətçəkən əsas məqam onun, həqiqətən, ölkəmizin milli maraqlarına və iqtisadi təhlükəsizliyinə cavab verməsi olur. Dövlətimizin ali maliyyə sənədində hər zaman iqtisadiyyatdakı pozitiv meyillər nəzərə alınır, eyni zamanda büdcənin tərtibi zamanı dünya iqtisadiyyatında və beynəlxalq maliyyə bazarlarında baş verən meyillər diqqətlə təhlil edilir. Çünki dünya iqtisadiyyatında gedən proseslər Azərbaycan iqtisadiyyatı üçün həm müsbət, həm də mənfi təsir imkanlarına malik çağırışlarla səciyyələnən mühit formalaşdırır.

2022-ci il dövlət büdcəsinin layihəsi də Azərbaycanın real inkişaf səviyyəsi, dünyada gedən siyasi və iqtisadi proseslərin təsiri ilə baş verə biləcək mənfi təzahürlər nəzərə alınmaqla hazırlanıb. Qlobal iqtisadiyyatda gedən son proseslərin təhlili aparılıb, onların ölkəmizin makroiqtisadi göstəricilərinə, büdcənin əsas parametrlərinə ehtimal olunan təsirləri qiymətləndirilib. 2021-ci il üzrə artım tempinin, eləcə də büdcə gəlirlərinin və xərclərinin icrasında qarşılıqlı nisbətin qorunub saxlanması, büdcə kəsirinin proqnozlaşdırılan səviyyədən xeyli aşağı olması, qeyri-neft ixracının və qeyri-neft vergi daxilolmalarının əhəmiyyətli dərəcədə artması, makroiqtisadi sabitlik ölkəmizin 2022-ci ilin dövlət büdcəsinin planlaşdırılmasında mühüm baza rolunu oynayıb. Gəlir və xərclərin artımı həm də onu göstərir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi inkişaf strategiyası koronavirus pandemiyasının davam etməsinə və dünyada iqtisadi fəallığın tam bərpa olunmamasına baxmayaraq, dövlətimizin inkişafını təmin etməyə imkan verib.

Gələn ilin dövlət büdcəsində gəlir və xərclərlə bağlı proqnozlar olduqca məqbuldur. Bu baxımdan büdcə layihəsi və büdcə zərfinə daxil olan digər sənədlər Azərbaycanın iqtisadi həyatında mövcud olan reallıqları tam və dolğun əks etdirir. Bu isə onu söyləməyə əsas verir ki, 2022-ci ilin büdcəsi qarşıdakı dövrdə Azərbaycan iqtisadiyyatının davamlı inkişafına, icra olunan dövlət proqramlarının tam reallaşdırılmasına zəmin yaradacaq, respublikamızın cari və strateji inkişaf hədəflərinə, iqtisadi siyasətinə və qarşıda duran çağırışları dəf etməyə xidmət etmək iqtidarında olacaq.

### Vətən müharibəsindəki Zəfər yeni çağırışlar yaradıb

2022-ci il üçün dövlət büdcəsinin xərclərində əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsinin, növbəti ilin yanvarın 1-dən dövlət büdcəsindən maliyyələşən təşkilatlarda və maliyyə yardımı alan bir sıra müəssisə və təşkilatlarda çalışanların əməkhaqlarının, həmçinin ölkədə əmək pensiyalarının, sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin artırılması ilə bağlı xərclərin, tibbi sığortanın tətbiqinin, COVID-19 pandemiyasına qarşı mübarizə tədbirlərinin maliyyə təminatı üstünlük təşkil edəcək. O cümlədən ərzaq təhlükəsizliyinin, aqrar sektorun stimullaşdırılması, kənd təsərrüfatının aparıcı sahələrinin daha da inkişaf etdirilməsi, nəqliyyat, kommunal, meliorasiya, sənaye və energetika, kənd təsərrüfatı kimi prioritet sahələr üzrə infrastruktur layihələrinin maliyyələşdirilməsi, təhsil, elm, səhiyyə, sosial təminat, mədəniyyət və idman sahələri üzrə maddi vəsaitlərin artırılması büdcə xərclərində diqqət mərkəzindədir.

İşğaldan azad olunmuş ərazilərdə əhalinin məskunlaşdırılmasına, onların həyat şəraitinin bərpasına, dayanıqlı və davamlı iqtisadi fəallığının təmin edilməsinə yönəldilən infrastruktur layihələrinin hazırlanması, dövlət xidmətlərinin təmin olunması, müdafiə xarakterli işlərin icrası ilə bağlı meydana gələn zəruri xərclərin maliyyələşdirilməsi dövlət büdcəsi qarşısında mühüm çağırışlar yaradıb. Bu baxımdan işğaldan azad olunmuş şəhər və rayonlar üzrə bərpa-yenidənqurma işlərinin, infrastrukturların tikintisinin davam etdirilməsi, həmin ərazilərdə ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin daha da artırılması, hüquq-mühafizə orqanlarının müvafiq xidmətlərinin təşkili və hərbi infrastrukturların tikintisinin və yenidən qurulması büdcə xərclərində prioritet istiqamətlərdən biri kimi müəyyən olunub.

Azərbaycanda mövcud olan güclü makroiqtisadi əsaslar ölkəni gözlənilməz makroiqtisadi təhdidlərə qarşı həm əhəmiyyətli dərəcədə qoruyur, həm də bu sahədə baş verə biləcək risklərin əvvəlcədən müəyyən edilməsi, onların kəmiyyətinin ölçülməsi və aradan qaldırılması barədə lazımi tədbirlər görülməsinə zəmin yaradır.

Hazırda Qafqazda bütün məsələlərdə liderlik edən Azərbaycan dövlət büdcəsinin gəlir və xərclərinə görə də birincidir. Bunun nəticəsidir ki, dövlət büdcəsinin tərtibi zamanı ölkə üçün vacib məsələlərin maliyyələşdirilməsinə daha çox diqqət yönəldilib.

2022-ci il Azərbaycanın yüksəlişində növbəti uğurlu dövr olacaq. Çünki gələn ilin dövlət büdcəsi inkişafın dayanıqlı olması üçün güclü maliyyə təminatı yaradır. Büdcə layihəsində gəlir və xərclərin təhlili göstərir ki, növbəti il üçün əsas maliyyə planı xalqımızın rifahının daha da yaxşılaşmasını və ölkəmizin qüdrətinin yüksəlməsini, iqtisadi inkişafın davamlılığını təmin edəcək. Əsas istiqamətlər üzrə müşahidə olunan artımlar həm də Azərbaycanda həyata keçirilən islahatların real nəticəsidir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Məclisin komitə iclasında büdcə zərfinə dair qanun layihələri müzakirə edilib

Noyabrın 22-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin geniş tərkibdə onlayn iclası keçirilib.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, komitənin sədri Tahir Mirkişili gündəlik barədə məlumat verərək iclasın gündəliyinə gələn ilin büdcə zərfinə dair qanun layihələri ilə yanaşı, bir sıra digər qanun layihələrinin də daxil edildiyini bildirib. Tahir Mirkişili büdcə layihəsinin birinci oxunuşu zamanı komitələrdə və plenar iclasda kifayət qədər məlumat verildiyini, plenar iclasda birinci oxunuşda qaldırılan konseptual məsələlərə hökumətin plenar iclasda cavab verəcəyini, hazırda isə ikinci oxunuşun tələblərinə uyğun maddələr və istiqamətlər üzrə müzakirələrin keçiriləcəyini qeyd edib.

Büdcə layihəsi barədə məlumat verən komitə sədri 2022-ci ilin dövlət büdcəsinin icrası ilə bağlı makroiqtisadi mühitin əlverişli olduğunu diqqətə çatdırıb. Həm ÜDM-in artması, həm də qeyri-neft sektorunun artım tempinin yüksəlməsi, makroiqtisadi sabitliyin qorunması, manatın məzənnəsinin sabit qalması, inflyasiyanın növbəti ildə orta illik göstəricisinin aşağı olması onu deməyə əsas verir ki, həm dövlət büdcəsi layihəsinin ümumi parametrləri, həm də onun icrası üçün əlverişli zəmin var.

Sonra Tahir Mirkişili komitənin gündəliyindəki məsələlərdən ikisində - "Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" və "Nağdsız hesablaşmalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə ikinci oxunuşda olan qanun layihələrinin mətnində birinci oxunuşun müzakirələri nəticəsində dəyişikliklər olunduğunu qeyd edib və büdcə məsələlərinin müzakirələrindən əvvəl bu barədə məlumat vermək üçün Dövlət Vergi Xidməti rəisinin müavini Samirə Musayevaya söz verib.

Samirə Musayeva deputatların birinci oxunuşda qaldırdığı məsələlər əsasında Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında və "Nağdsız hesablaşmalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrində edilən dəyişikliklər barədə məlumat verib. Bildirib ki, Vergi Məcəlləsinə təklif olunan dəyişiklikdə mənfəət vergisi bəyannaməsinin kameral yoxlanması ilə bağlı müddət 60 iş günü müəyyən edilib, həmçinin şəhid ailələrinə və müharibə əlillərinə göstərilən maddi yardımların gəlir vergisindən azad olunan məbləği 10 min manatdan 20 min manata qədər artırılıb, "Müharibədə yaralanan" anlayışı "Müharibə iştirakçıları" termini ilə əvəz olunub.

Bundan başqa, Milli Məclisin kənd təsərrüfatı məhsullarında istehsalçıdan sonra bütün növbəti həlqələrdə tətbiqi nəzərdə tutulan ƏDV-nin yalnız məhsulun ticarət əlavəsinə görə hesablanması ilə bağlı təklifi də nəzərə alınıb.

"Nağdsız hesablaşmalar haqqında" Qanunda isə pərakəndə ticarətdə nağd hesablaşmalar üçün nəzərdə tutulan limit də 4 min manat məbləğində müəyyən edilib.

Sonra iclasda büdcə layihəsi və onunla bağlı məsələlərin müzakirəsi başlanıb.

Müzakirələrdə komitə sədrləri Tahir Mirkişili, Hicran Hüseynova, Qənirə Paşayeva, Musa Quliyev, Siyavuş Novruzov, komitələrin sədr müavinləri Əli Məsimli, Qüdrət Həsənquliyev, Məlahət İbrahimqızı, Sahib Alıyev, deputatlar Vüqar Bayramov, Arzu Nağıyev, Məzahir Əfəndiyev, Vahid Əhmədov çıxış ediblər, dövlət büdcəsi ilə bağlı fikirlərini açıqlayıblar, rəylərini səsləndiriblər. Deputatlar şəhid ailələri üzvlərinin və müharibə veteranlarının təhsilinin artırılmasının, qəzalı vəziyyətdə olan məktəblərin əsaslı təmirinin diqqətdə saxlanılmasının vacibliyini bildiriblər. Deputatlar, həmçinin seçiciləri düşündürən məsələləri hökumət üzvlərinin diqqətinə çatdırıblar, gələn ildə regional infrastruktur layihələrinin icrası, qaz, su təminatının həlli kimi məsələləri qaldırıblar. Çıxışlarda aidiyyəti dövlət orqanlarının büdcə planlamasında proqnozlarını təqdim etməsinin əhəmiyyəti vurğulanıb.

Sonra maliyyə naziri Samir Şərifov çıxış edərək qaldırılan məsələlərlə bağlı ətraflı izahat verib.

Satınalmalarla bağlı qaldırılan bəzi məsələlərin hökuməti də qane etmədiyini qeyd edən nazir bu sahənin təkmilləşdirilməsi istiqamətində işlər aparıldığını deyib. Subsidiyalardan, xüsusən aqrar sahənin subsidiyalaşmasından və hökumətin bu sahədən gözləntilərindən danışan nazir subsidiya həcmlərinin artmasının gətirə biləcəyi risklərin hökumətin də gündəliyində olduğunu bildirib. Ümumi gəlirlərin 88,8 faizinin Bakı şəhərinin, 11,2 faizinin digər regionların payına düşdüyünü qeyd edən Samir Şərifov regionların gəlirlərinin müəyyən hissəsinin rayonlarda saxlandığını bildirib. Avtomobil parkının yenilənməsində hökumətin elektromobillərə və hibrid avtomobillərə üstünlük verdiyi bildirilib və bu istiqamətdə nəzərdə tutulan stimullaşdırıcı tədbirlər barədə məlumat verilib.

Nazir büdcə vəsaitlərinin idarə olunması ilə bağlı da deputatlara məlumat verib. Qaldırılan bir çox məsələlər üzərində hökumət tərəfindən iş aparıldığını vurğulayan maliyyə naziri bildirib ki, deputatların təmsil etdikləri rayonlarla və seçicilərlə bağlı gündəmə gətirdikləri problemlər əsasən növbəti büdcə planlaşdırılmasında öz həllini tapa biləcək məsələlərdir.

Sonra iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov, təhsil nazirinin müavini İdris İsayev də çıxış edərək öz sahələri üzrə qaldırılan məsələlərə aydınlıq gətiriblər.

Müzakirələrdən sonra deputatlar "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsini ikinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə ediblər.

Müzakirələrin sonunda ikinci oxunuşda olan "İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında", "Azərbaycan Respublikasında 2022-ci il üçün yaşayış minimumu haqqında", "Azərbaycan Respublikasında 2022-ci il üçün ehtiyac meyarının həddi haqqında", "Dövlət rüsumu haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, Su Məcəlləsində, Gömrük Məcəlləsində, Şəhərsalma və Tikinti Məcəlləsində, "Yerin təki haqqında", "Balıqçılıq haqqında", "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Ovçuluq haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Baytarlıq haqqında", "Dərman vasitələri haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Mədəniyyət haqqında", "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, "Sığorta fəaliyyəti haqqında" qanunda dəyişiklik edilməsi barədə, Vergi Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Nağdsız hesablaşmalar haqqında", "İcra haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Dövlət satınalmaları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihələrinin və birinci oxunuşda olan "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin Milli Məclisin plenar iclasına tövsiyə edilməsi qərara alınıb.

Onlayn iclasda Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, deputatlar və digər rəsmi şəxslər iştirak ediblər.

# Azərbaycanla Xorvatiyanın enerji sistemləri arasında əməkdaşlıq məsələləri müzakirə edilib

"Azərenerji" ASC-nin rəhbəri Baba Rzayevlə Xorvatiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Branko Zebiçin görüşü olub. Görüşdə Xorvatiya ilə Azərbaycan enerji sistemləri arasındakı əməkdaşlıq münasibətləri barədə müzakirələr aparılıb.




Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilən ərazilərdə aparılan quruculuq işləri, elektroenergetika sahəsində həyata keçirilən layihələr barədə fikir mübadiləsi aparılan görüşdə Xorvatiyanın elektrik avadanlıqları istehsal edən şirkətlərinin imkanlarına dair geniş müzakirələr keçirilib.

***"Azərbaycan"***

# Azərbaycanda neft hasilatı və ixracı üzrə proqnozlara əməl olunur

Dünyada hökm sürməkdə davam edən koronavirus pandemiyasına qarşı Azərbaycanda da çoxşaxəli iş aparılır, çoxsaylı qoruyucu tədbirlər həyata keçirilir, xüsusi karantin rejiminin tələblərinə ciddi əməl olunur. Azərbaycan neftçiləri də həmin qaydalara riayət etməklə karbohidrogenlərin hasilatını və ixracını dayandırmırlar.



Cari ilin üçüncü rübündə ölkə üzrə 8,7 milyon tona yaxın neft, 11,3 milyard kubmetrdən artıq qaz hasil edilib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə neft hasilatında 6 faiz, qaz hasilatında 38,6 faiz artım deməkdir. Neft hasilatının artımı əsasən OPEC+ razılaşması çərçivəsində hasilata tətbiq edilən məhdudiyyətlərin nisbətən yumşaldılması ilə bağlı olub. Bu barədə SOCAR-dan (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) məlumat verilib.

Şirkətin istismar etdiyi yataqlarda üç ay ərzində 2 milyon tona yaxın neft, 2 milyard kubmetrə yaxın qaz çıxarılıb və beləliklə, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə neft hasilatı 10 faiz, qaz hasilatı isə 9 faiz artıb. Bu da istismarda olan neft və qaz yataqlarında hasilat səviyyəsinin sabit saxlanılması məqsədilə həyata keçirilən kompleks tədbirlər planının davamlı şəkildə icra edildiyini göstərir. Məsələn, üçüncü rübdə şirkət üzrə 20 min metrdən artıq qazma işi aparılıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 82 faiz çoxdur.

Cari ilin sentyabr ayında Azərbaycanda gündəlik neft (kondensatla birlikdə) hasilatı 703,1 min barel olub. Bunun 586,2 min barelini xam neft, 116,9 min barelini isə kondensat təşkil edib. Bu barədə Energetika Nazirliyindən bildirilib.

"Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının tammiqyaslı işlənməsi layihəsinin operatoru olan bp şirkəti də hasilatın sabit və təhlükəsiz şəkildə davam etdiyi barədə məlumat verib. Hazırda AÇG yataqlar blokunda 136 neft hasilatı quyusu istismar olunur.

AÇG və "Şahdəniz" yataqlarından neft və qaz sualtı boru kəmərləri vasitəsilə Səngəçal terminalına göndərilir. Terminalın texniki emal sistemlərinin gündəlik gücü hazırda 1,2 milyon barel neft və kondensat, "Şahdəniz" qazı üçün təqribən 81 milyon standart kubmetrdir. Ümumi qaz emalı və ixracı gücü isə (AÇG səmt qazı da daxil olmaqla) gündəlik təqribən 100 milyon standart kubmetr təşkil edir.

Bu ilin ilk üç rübü ərzində terminaldan təxminən 172 milyon barel neft və kondensat ixrac edilib. O cümlədən 148 milyon barel Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri vasitəsilə və təxminən 24 milyon barel Qərb İxrac Boru Kəməri marşrutu ilə göndərilib.

Bəs Azərbaycan nefti ən çox hansı ölkələrə ixrac olunur? Bu barədə Dövlət Gömrük Komitəsi məlumat yayıb. Belə ki, cari ilin yanvar-sentyabr aylarında ölkəmiz ən çox İtaliyaya bitumlu süxurlardan alınmış xam neft və xam neft məhsulları ixrac edib. Həmin ixracın həcmi 9 milyon 542,9 min ton, dəyəri isə 4 milyard 323,7 milyon ABŞ dolları olub.

Doqquz ayda Azərbaycandan İspaniyaya 552,6 milyon dollarlıq 1 milyon 270,8 min ton, Xorvatiyaya 547,8 milyon dollarlıq 1 milyon 162,3 min ton, İsrailə 510,1 milyon dollarlıq 1 milyon 69,3 min ton, Hindistana 496 milyon dollarlıq 1 milyon 122,7 min ton xam neft və xam neft məhsulları ixrac edilib. Eləcə də Portuqaliyaya 382,5 milyon dollarlıq 803,6 min ton, Böyük Britaniyaya 312,4 milyon dollarlıq 624 min ton, Tunisə 306,3 milyon dollarlıq 658 min ton, Ukraynaya 268,2 milyon dollarlıq 649,8 min ton, Almaniyaya 216,3 milyon dollarlıq 442 min ton xam neft və xam neft məhsulları yola salınıb.

Beləliklə, bu dövrdə Azərbaycandan ümumilikdə 20 milyon 281,6 min ton xam neft və xam neft məhsulları ixrac edilib. İxracın dəyəri 9 milyard 302,6 milyon dollar olub.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# UNICEF-in Azərbaycandakı nümayəndəsi Gəncəyə səfər edib

UNICEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Aleks Heiken Gəncədə olmuşdur. O, səfər çərçivəsində şəhər icra hakimiyyətinin başçısı Niyaz Bayramovla görüşmüşdür.



Görüşdə N.Bayramov qonağın nəzərinə çatdırıb ki, Azərbaycanın hər yerində olduğu kimi, Gəncə şəhərində də dövlət tərəfindən uşaqlara xüsusi diqqət və qayğıkeşlik göstərilir. Şəhərdə 42 uşaq bağçası-körpələr evi, 45 ümumtəhsil məktəbi, uşaq evi, Gəncə SOS Uşaq Kəndi, Körpələr Evi və digər təhsil müəssisələrinin fəaliyyət göstərdiyini deyən ŞİH-in başçısı qeyd edib ki, 44 günlük Vətən müharibəsi dövründə Gəncə Ermənistan silahlı qüvvələri tərəfindən bir neçə dəfə raket atəşinə məruz qalmışdır: "Nəticədə 6-sı uşaq və yeniyetmə olmaqla 26 nəfər həyatını itirmiş, 29-u uşaq olmaqla ümumilikdə 130-a yaxın insan müxtəlif dərəcəli bədən xəsarətləri almışdır".

Görüşdə o da bildirilmişdir ki, hazırda Gəncə şəhər, eləcə də Kəpəz və Nizami rayon icra hakimiyyətləri yanında yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar, eyni zamanda Kəpəz və Nizami rayon icra hakimiyyətləri yanında qəyyumluq və himayəçilik komissiyaları fəaliyyət göstərir. Bu qurumlar Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə sıx əməkdaşlıq edirlər. Bunlardan başqa, şəhərdə icmaəsaslı mərkəzlər də yaradılıb.

Qonaq Aleks Heiken 44 günlük Vətən müharibəsi zamanı baş verən faciələrlə bağlı üzüldüyünü dilə gətirmiş və qeyd etmişdir ki, hər bir uşağın sülh və əmin-amanlıq içində yaşamaq haqqı vardır.

Aleks Heiken Gəncəyə səfərinin əsas məqsədinin məktəbəqədər təhsillə yanaşı, icmaəsaslı erkən yaş dövrü üçün təhsil mərkəzlərinin yaradılması olduğunu diqqətə çatdırmışdır: "Təklifimiz əsasən erkən yaş dövrü üçün təhsil məsələləri ilə bağlıdır. Çünki məktəbəqədər təhsillə yanaşı, bizdə erkən təhsil anlayışı məsələsi də var. Bunun təmin olunması üçün isə icmaəsaslı erkən təhsil mərkəzləri yaradılır. Biz əsasən bu mərkəzlər şəbəkəsinin genişləndirilməsi məsələsinə diqqət yetiririk. Mərkəzlərin fəalliyyətinin davamlılığını təmin etmək üçün yeni təkliflər lazımdır. Bu baxımdan həmin mərkəzlərin sosial model kimi tətbiq edilməsini nəzərdə tuturuq. Beləliklə, artıq sözügedən mərkəzlər özləri sosial müəssisə kimi fəaliyyət göstərəcək. Burada yeni iş yerləri açılacaq, eyni zamanda özünüməşğulluq imkanları yaradılacaq. Mərkəzlər özünün maddi bazasını yaradaraq sosial müəssisələr kimi fəaliyyətlərini davam etdirəcək. Əsas hədəfimiz isə mərkəzlərin yeni bir mərhələyə çıxarılması, yeni fəaliyyətin təkmilləşdirilməsidir".

Gəncə şəhər rəhbərliyi əməkdaşlıq təklifini müsbət qarşılamış və qeyd olunan istiqamətlərdə lazımi köməyin göstəriləcəyini bildirmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Fransa jurnalı Ağdamı tərk olunmuş 10 şəhər sırasına daxil edib

"Azərbaycanda dağlarla əhatə olunmuş XVIII əsr şəhəri olan Ağdam bu ölkə ilə Ermənistan arasında baş vermiş münaqişə zamanı dağıdılıb, talan edilib, şəhərdən yalnız xarabalıqlar qalıb".

AZƏRTAC xəbər verir ki, bu fikir Fransanın "Admagazine" jurnalının internet səhifəsində dərc edilmiş "Böyük təəccüb doğuran 10 tərk edilmiş şəhər" sərlövhəli məqalədə yer alıb.

Məqalədə dünyanın ən çox dağılmış 10 şəhəri təqdim olunub. Bu şəhərlər arasına 30 ilə yaxın erməni işğalı altında qalmış, "Qafqazın Xirosiması" adlandırılan Ağdam şəhəri də daxil edilib. Siyahıda yer almış şəhərlərin əksəriyyəti təbii fəlakətlərə görə tərk edilib. Yeganə olaraq Ağdam erməni işğalı zamanı dağıdılmış şəhər kimi təqdim olunub.



# Multikultural Zəfər



Azərbaycan xalqının ən qürurlu, ən parlaq Zəfəri kimi əbədi qələbə imzası atdığı 44 günlük müharibə həm də milli birliyimizin təntənəsi kimi tarixə qızıl hərflərlə həkk olundu.

## Azərbaycanda yaşayan xalqlar arasındakı sarsılmaz birlik qələbəyə uzanan parlaq yolda daha da möhkəmləndi

Ana torpağın işğalı ilə heç zaman barışmayan və Zəfərə, qalibiyyətə susamış xalq bir yumruğa çevrilərək düşmənin başı üzərində ildırım kimi çaxdı. Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri fəxarətlə "mən, azərbaycanlıyam" deyərək bütün cəbhələrdə mənfur düşmənlə mübarizəyə qalxdı, doğma Vətənin bütövlüyü uğrunda əlindən gələn hər şeyi etmək üçün gecə-gündüz çalışdılar.

### Milli həmrəyliyin təcəssümü

Vətən müharibəsində bir amal ətrafında tarixin heç bir dönəmində görünmədiyi kimi həmrəy olaraq, Azərbaycanın haqq savaşı uğrunda hər biri müsəlləh əsgərə çevrildi. Azərbaycan xalqı milli həmrəylik nümayiş etdirərək Vətən savaşımızın qalibiyyətlə bitməsi üçün əlindən gələn hər şeyi etdi, dövlətimizə, ordumuza, əsgərimizə, ümumilikdə, Qələbəmizə töhfə verdi.

Bu vətənpərvərlik ənənəsi isə tarixin qədim qatlarından üzübəri davam edir. Zaman-zaman doğma torpaqlarımıza qarşı yadellilərin hər işğal təhlükəsi bu odlar yurdunda yaşayan müxtəlif xalqların eyni məram altında birləşməsi nəticəsində uğurla dəf edilib. Birinci Qarabağ müharibəsində də bu cür həmrəylik nümayiş etdirilib. Tarixi torpaqlarımızı erməni işğalçılarından qorumaq üçün yenə də bütün millətlərin nümayəndələrindən olan igid oğullar silaha sarılaraq mənfurlarla çarpışıblar, sinələrini düşmən gülləsinə sipər ediblər. Bu qəhrəman övladların hər biri Azərbaycanı canlarından çox seviblər. Təkcə bir nümunə çəkək ki, o zaman öz tankı ilə düşmənə qan udduran və Şuşa uğrunda döyüşlərdə qəhrəmanlıqla şəhadətə ucalan yəhudiəsilli Milli Qəhrəman Albert Aqarunovun şücaəti haqqında bu gün də hər kəs qürurla danışır.

İkinci Qarabağ müharibəsində parlaq Zəfər çələnginin hörülməsində də Azərbaycan xalqının hər bir övladının əməyi, zəhməti oldu. Çoxmillətli xalqımızın hər bir üzvü bu qələbədə zərrə qədər də payı olması üçün gecə-gündüz əzmlə çalışdı. Yəhudisi də, ləzgisi də, talışı da, avarı da, rusu da, türkü də yaralı yurdumuzun müdafiəsinə qalxdı.

Elə şanlı Zəfərimiz də bir amal ətrafında birləşməyimiz, birlik nümayiş etdirərərk güclü olmağımız sayəsində əldə olundu.

### Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin təntənəsi

Vətən müharibəmizdə digər amillərlə yanaşı, Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsi də qələbə çaldı. Azərbaycanda yaşayan xalqlar arasında tarixən də var olan dostluq, qardaşlıq dədə-baba yurdumuz Qarabağın azadlığına uzanan parlaq yolda daha da möhkəmləndi, daha da bərkidi

Təsadüfi deyildi ki, 30 illik fasilədən sonra bu ilin mayın 12-13-də Şuşada Cıdır düzündə təşkil olunan "Xarıbülbül" Musiqi Festivalının ilk günündə ölkəmizdə yaşayan müxtəlif xalqların musiqi yaradıcılığı "Azərbaycan musiqisində multikulturalizm" mövzusunda təqdim edildi. Ölkəmizin müxtəlif bölgələrində yaşayan ayrı-ayrı xalqların musiqi qrupları və ifaçıları öz çıxışları ilə Azərbaycanın millətindən, dinindən asılı olmayaraq hər bir kəsin vahid Vətəni olduğu mesajını bütün dünyaya çatdırdılar.

Bu sarsılmaz birliyin heç bir düşmənin gücü, xarici müdaxiləsi ilə pozulmayacağını bir daha bəyan etdilər.

"Xarıbülbül" Musiqi Festivalının açılışındakı çıxışında bu birlik mesajının əhəmiyyətini xüsusi vurğulayan Prezident İlham Əliyev söylədi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır: "Təsadüfi deyil ki, birinci festivalda Azərbaycanda yaşayan xalqların nümayəndələri çıxış edəcəklər və bir daha biz bütün dünyaya buradan - Şuşadan, qədim torpağımızdan mesaj veririk".

Azərbaycanda yaşayan bütün etnosların nümayəndələrinin fərqli milli kimlikləri və dilləri, müxtəlif inancları və dəyərləri olsa da, bu keyfiyyətlər ta miniliklərin o üzündən bu günə kimi onları ayırmır, yada çevirmir, əksinə, birləşdirir, doğma edir. Elə bu ali mənəvi dəyərlərdən irəli gələrək Azərbaycanın bütövlüyünə təhlükə olan zaman çəkinmədən sinələrini sipər edərək, torpaq uğrunda ölümə belə getməkdən çəkinmirlər. Bəli, bütün bunlar Azərbaycanda yaşayan xalqların nümayəndələrinin ölkəmizə olan sevgisinin parlaq ifadəsi, bu, odlar yurdunun bütün millətlərin nümayəndələrinə doğma qucaq açdığının əyani və möhtəşəm göstəricisidir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycanın dəmir yolu infrastrukturu da müasirləşir

## Yeni Biləcəri Lokomotiv Deposu nəqliyyatın bu növü qarşısındakı hədəflərə çatmaqda mühüm rol oynayacaq

Polad magistralların istər dünyanın, istərsə də hər hansı bir ölkənin sosial-iqtisadi həyatındakı rolunun şərhə ehtiyacı yoxdur. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, koronavirus pandemiyasının ən çətin vaxtlarında belə nəqliyyatin bu növü ilə yükdaşımalarda problemlər yaranmamış, Azərbaycan iqtisadiyyatındakı ahəngdarlıq pozulmamışdır.

Təsadüfi deyil ki, son illər ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, nəhəng infrastruktur və nəqliyyat layihələrinin icrası istiqamətində böyük işlər görülür. Bunların sırasında dəmir yolu nəqliyyatına aid layihələr də əhəmiyyətli yer tutur. Qeyd etdiyimiz kimi, ən önəmlisi odur ki, bütün bu işlər dünyada davam edən pandemiya və iqtisadi-maliyyə çətinlikləri fonunda həyata keçirilir.

Bu il noyabrın 19-da "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) yeni Biləcəri Lokomotiv Deposunun açılışı və tədbirdə Prezident İlham Əliyevin iştirak etməsi deyilənləri bir daha təsdiqləyir.



MDB məkanında ilk dəfə Azərbaycanda yaradılan bu cür deponun istifadəyə verilməsi 4-cü sənaye inqilabına keçidlə bağlı atılan addımlardan biridir. Lokomotivlərin texniki baxışı və təmiri işləri aparılan yeni depoda ən müasir infrastruktur yaradılıb, dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıqlar quraşdırılıb. Deponun üzərində günəş panelləri quraşdırılıb ki, burada alınan enerjidən istifadə etmək mümkün olsun.

Deponun tikintisi "Dəyişən cərəyanla işləyən 50 lokomotiv üçün iki deponun - Biləcəri və Gəncə Lokomotiv depolarının tikintisi" layihəsi çərçivəsində həyata keçirilib. Yeni depoların nəzərdə tutulduğu dəyişəncərəyanlı 40 yük lokomotivi və ikili elektrik təchizatı sistemində işləyən 10 sərnişin lokomotivi dünyanın aparıcı şirkətlərinə sifariş edilib. 28-i yük və 10-u sərnişin lokomotivi olmaqla 38 müasir "Alstom" lokomotivi artıq ölkəmizə çatdırılıb. Ümumilikdə, bu deponun istifadəyə verilməsi enerji resurslarının qənaətinə, istismarın asanlaşmasına, qatarların hərəkət sürətinin artırılmasına və nəticə etibarilə yük və sərnişin daşımalarında səmərəlilik göstəricilərinin yaxşılaşdırılmasına, lokomotivlərin gücünün çoxalmasına imkan yaradacaq. Depoda xarici ölkələrdə təlim keçmiş 150-yə yaxın yüksəkixtisaslı işçi çalışacaq.

Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycan dəmir yolu nəqliyatı zəngin tarixə malikdir. 1880-ci il yanvarın 20-də ölkəmizdə ilk dəmir yolu istifadəyə verilib. Bakı-Sabunçu-Suraxanı marşrutu üzrə qatarın yola çıxması ilə nəqliyyat tariximizdə yeni səhifə aşılıb - dəmir yolları dövrü başlanıb. 1900-cü ildə uzunluğu 231 kilometr olan Dərbənd-Biləcəri dəmir yolu xətti tikilib. Çox keçməyib ki, polad magistrallar, vağzallar, qatarlar Azərbaycanda həyatın ayrılmaz hissəsinə çevrilib. Dəmir yolu xətləri ölkənin hər tərəfinə uzanıb, coğrafi baxımdan uzaq olan bölgələri bir-birinə və eyni vaxtda mərkəzə - Bakıya calayıb. Daha sonra dəmir yolları qonşu regionlarla birləşdirilib, Xəzərin və Qara dənizin sahilləri, şimal və cənub arasında bağlantı yaradıb.

Bu gün Azərbaycanın dəmir yolları inkişafının yeni mərhələsini yaşayır. Ölkəmizdə icra olunan layihələr arasında Azərbaycanda dəmir yolu nəqliyyatı infrastrukturunun inkişaf etdirilməsi və təkmilləşdirilməsi, dəmir yollarında hərəkətin idarə edilməsi prosesinin müasir səviyyəyə çatdırılması, dəmir yolu nəqliyyat vasitələri parkının müasirləşdirilməsi və bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülən işlər böyük önəm daşıyır. Bu işlər "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin qovuşduğu coğrafi məkan kimi Azərbaycanın regionda rolunu və yerini daha da möhkəmləndirir, iqtisadi və nəqliyyat-logistika potensialını əhəmiyyətli dərəcədə artırır.

Yeri gəlmişkən, qeyd edək ki, dəmir yolu nəqliyyatında cari ilin yanvar-oktyabr aylarında 12,3 milyon ton yük, 2099,3 min sərnişin daşınmışdır. Ötən ilin eyni dövrünə nisbətən yükdaşımada 1,8 faiz, sərnişindaşımada 14,8 faiz artım olmuşdur. Sutkada orta hesabla 344 vaqon yüklənmiş, 336 vaqon boşaldılmışdır. Sutka ərzində şimal istiqaməti üzrə 16,9 min ton, qərb istiqaməti üzrə 3 min ton, cənub istiqaməti üzrə 0,7 min ton yükləmə işi yerinə yetirilmişdir. Bunlar Dövlət Statistika Komitəsinin məlumatıdır.

Azərbaycanda və beynəlxalq məkanda dəmir yolu nəqliyyatı sahəsində xidmətlərə tələbatın yüksək səviyyədə təmin olunması, ölkəmizin Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilməsi, regionda əməkdaşlığın, ticarət dövriyyəsinin və rəqabətqabiliyyətliliyinin artırılması, irimiqyaslı və strateji əhəmiyyətli layihələrin yüksək səviyyədə həyata keçirilməsi qarşıya qoyulan mühüm hədəflərdəndir. Bu hədəflərə çatmaqda yeni Biləcəri Lokomotiv Deposu da mühüm rol oynayacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***



# Türk dünyasından Azərbaycanın möhtəşəm qələbəsinə layiqli dəyər

İstanbuldakı Demokratiya və Azadlıq Adasından, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündən Azərbaycana nəzər salmaq, onun uğurlarına və əldə etdiyi nailiyyətlərə qardaş dövlətlərin gözü ilə baxmaq bu gün xüsusi əhəmiyyət kəcb edir.

Postmüharibə dövründə möhtəşəm qələbənin birillik yubileyini qeyd edən dövlətimiz uzaqdan, türkdilli dövlətlərin baxış bucağından necə görünür? Hərbi və iqtisadi uğurlarımız qardaş ölkələrin mizan-tərəzisində hansı xüsusi çəkiyə malikdir? Yəni bəzən bir dövlətin daxilində baş verənləri anlamaq üçün ona bir qədər kənardan baxmaq da faydalıdır.

Bizim üçün bu gün ən vacibi möhtəşəm zəfərin uzaqdan seyr edilməsidir. Amma onu xatırlayaq ki, azğın Ermənistan ordusu üzərində çaldığımız qələbədən bir il ötməsinə baxmayaraq, bu gün də dünyanın bütün aparıcı dövlətləri və tanınmış ekspertləri tərəfindən 44 günlük müharibənin təfərrüatları dərindən öyrənilir, araşdırılır və hətta NATO qoşunlarının tərkibində belə yeni islahatların aparılması təklifləri irəli sürülür. Dünya düzəninə yeni qoşulan Azərbaycan kimi gənc dövlətin çaldığı qələbədən sonra supergüclər və onların hərbi qurumları artıq daha müasir ordu quruculuğunun aparılmasının zəruriliyini vurğulayır və bu istiqamətlərdə ciddi tədbirlər həyata keçirirlər.

Bu barədə çox yazılıb, amma deyilməyən odur ki, Azərbaycan kimi işğaldan 30 il əziyyət çəkən dövlətin 44 günə düşməni darmadağın etməsi inanılmaz və bütün dünyanı heyrətə gətirən yenilikdir. Biz Ali Baş Komandanın dünyada heç vaxt tətbiq edilməyən uğurlu yeni hərbi strategiya və taktikasının çaldığı şəksiz və unikal qələbənin şahidi olduq. Azərbaycan əsgərinin misilsiz rəşadətinin erməniləri necə dəhşətə gətirdiyini, raket və bomba atəşlərinə məruz qalan dinc əhalinin isə necə direniş göstərib evlərini tərk etmədiklərini gördük. Xalq və iqtidar birliyi, Ali Baş Komandan və şəxsən onun uzun illər ərzində qurduğu möhtəşəm ordu düşmənin başına dəmir yumruq kimi çırpıldı və onu əbədi iflic etdi. Bu, bizim ölkə daxilində qələbəyə verdiyimiz qiymətdir.

VIII Zirvə görüşündə Prezident İlham Əliyevə Türk Dünyasının Ali Ordeni təqdim edilərkən əzəmətli qələbəmizin türkdilli dövlətlər tərəfindən təsəvvür etdiyimizdən dəfələrlə yüksək qiymətləndirilməsinin şahidi olduq. Bununla bağlı qərarda deyilir: "Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Zati-aliləri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad edilməsini və ərazi bütövlüyünün bərpasını təmin edərək türk birliyinə mühüm töhfə verən və bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi qələbəyə görə Dövlət Başçıları Şurası Türkiyə Respublikasının Prezidenti Zati-aliləri Rəcəb Tayyib Ərdoğanın təklifi ilə Zati-aliləri İlham Əliyevin böyük şərəflə "Türk Dünyasının Ali Ordeni ilə təltif edilməsi haqqında" qərar qəbul etmişdir".

Qazaxıstan, Qırğız, Türkiyə və Özbəkistan respublikalarının prezidentlərinin imzaladığı bu sənəd bütün türk dünyası üçün qələbənin necə böyük önəm daşıdığını, necə qürur doğurduğunu, Azərbaycanın türk dünyasının parlayan ulduzuna çevrildiyini təsdiq edir. Və ən başlıcası odur ki, Prezident İlham Əliyev öz adını qızıl hərflərlə türkdilli dövlətlərin hərb tarixinə həkk etdi.

Ərdoğan bu qələbəni belə qiymətləndirmişdir: "Qarabağ Zəfəri ilə təkcə işğal altındakı torpaqlar azad edilməyib, eyni zamanda, bölgəmizdə həsrətini çəkdiyimiz davamlı sülh, sabitlik və əməkdaşlığa gedən yolun da önü açılıb".

İstanbuldan Azərbaycanın hərbi qüdrətinin və danılmaz qələbəsinin türk dünyasının qürur mənbəyinə çevrilməsi aydın sezilir. Sevindirici hal odur ki, zirvə görüşündə Azərbaycanın hərbi uğurları bütün türk dünyasının qələbəsi kimi təqdim edildi.

Prezident İlham Əliyev çıxışında ona təqdim edilən yüksək mükafata görə dərin təşəkkürünü bildirmiş və bu mükafatın bütün Azərbaycan xalqına verildiyini demişdir: "İkinci Qarabağ savaşında göstərdiyimiz əzmkarlıq, iradə, rəşadət bizi böyük Zəfərə gətirib çıxardı və onu da bildirməliyəm ki, bunu hər kəs görür, bizə əlavə güc verən əziz Qardaşım Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarından başlayaraq son dəqiqələrinə qədər bizə göstərdiyi dəstək və mənəvi dayaqdır. Çünki biz bu dəstəyi hiss edərək, onun sözlərinə qulaq asaraq özümüzü daha da güclü hiss etdik. Çünki hörmətli Cümhurbaşqanı demişdir ki, Azərbaycan bu savaşda tək deyil. Türkiyə Azərbaycanın yanındadır və hər zaman yanında olacaqdır və bu, bizə əlavə güc verdi".

Azərbaycan bu müharibədə bütün çətinliklərə baxmayaraq, heç bir dövlətin birbaşa iştirakına Ermənistan kimi səy göstərmədi, əksinə, bu müharibənin regional faciəyə çevrilməsinin qarşısını aldı və ildırım sürəti ilə onu qısa zaman kəsiyində tarixi qələbə ilə bitirdi. Ermənistan dövləti və çoxmilyonlu erməni diasporu bu münaqişəni dünya müharibəsinə çevirmək, Türkiyə ilə Rusiyanı və digər oyunçuları birbaşa münaqişənin həllinə cəlb etmək üçün əldən-ayaqdan gedirdilər. Bu baxımdan Rusiyadakı erməni diasporunun bütün istiqamətlərdən necə hücuma keçdiklərini, Rusiya KİV-ində necə hay-küy qaldırdıqlarını, yəqin ki, hamınız xatırlayırsınız. Azərbaycan Prezidentinin müdrikliyi və uzaqgörənliyi bu təhlükələrin hamısının qarşısını aldı.

Artıq İstanbulda Türkdilli Dövlətlərin Şurasının təşkilata çevrildiyi elan edildi. Özlərini müdrik sayan ermənilər belə vəziyyətdə göz qırpımında sülh müqaviləsini imzalamalı, onlara bir il ərzində təklif olunan imtiyazlardan faydalanmalı idilər. Döyüş meydanında nokauta düşən Ermənistanın yenə əvvəlki kimi sərhədlərimiz boyu təxribatlar törətməsi, Şuşa yaxınlığında Azərbaycan postuna qumbara atması heç bir məntiqə sığmır! Məğlub edilmiş ordunun hücuma keçməsi nokauta düşən boksçunun yerindən qalxıb yumruq atması kimi bir şeydir. Yəni o, yeni zərbələrdən təkrar yerə səriləcək. İndi o da baş verir, erməni təxribatları acı gülüş doğurur. İndi Paşinyan Azərbaycanın Ermənistan ərazilərinə soxulduğunu bəyan edir. Bütün dünyanı köməyə çağırır. Bir yandan mitinqlərdə Rusiya söyülür, digər tərəfdən isə Paşinyan Putinə zəng vurub yalvarır.

Ermənistanın bu provokasiyalarda ciddi məqsədləri var, hiylə işlədir və yalanlarının ayaq alıb yeriyəcəyinə inanır. Məqsəd dünya ictimaiyyətinə yalan məlumatları sırımaq, yenə də əzabkeş erməni surətini gündəmə gətirib şişirtməkdir. Ermənistan işğalın 30 ili ərzində vurduğu milyardlarla ziyanın bədəlini ödəməlidir. İndi zavallı əzabkeş rolunu oynamaqla elə fikirləşir ki, yaxasını qurtara biləcək.

Digər tərəfdən, ermənilər yaxşı bilirlər ki, yeni yaranan Türk Dövlətləri Təşkilatı sülhə köklənir. Ermənistan üçün təhlükə törətməyəcək. Amma məsələ burasındadır ki, genosidə məruz qalan xalq kimi Türkiyədən qaçdıqlarını bayraq edən ermənilər, əslində, dinc əhali yox, hərbi silahlı birləşmələr idilər. Bunu sübut etmək üçün kifayət qədər faktlar mövcuddur. Erməni quldur dəstələri Türkiyədə, Qafqazda və hətta Orta Asiyada saysız-hesabsız vəhşiliklər törədiblər, şəhərləri və kəndləri yandırıb viran qoyublar. Onların cinayətlərinin sayı-hesabı yoxdur. Axı qaçqın, didərgin bunları edə bilməzdi.

İndi erməniləri qorxudan həm də bu faktlardır. Onlar başa düşürlər ki, TDT gec-tez bu məsələni qaldıracaq və bütün türkdilli dövlətlərdə törədilən erməni cinayətləri fərqli rakursdan araşdırılacaq. Bugünkü Ermənistan üçün hakimiyyətdə kimin olmasından asılı olmayaraq, sülhə, barışa getməkdənsə məzlum, zavallı xalq imicini qorumaq daha əlverişlidir. Amma onların xilas yolu sülhdən, barışdan keçir. Ya özləri xoşla gələcək, ya da zorla buna məcbur ediləcəklər.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# REGİONLAR



## “Ağdam-1” və “Ağdam-2” yarımstansiyalarının tikintisi yekunlaşıb

Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində həyata keçirilən layihələr arasında elektrik təchizatı xüsusi önəm kəsb edir. Artıq hər biri 110/35/10 kilovoltluq “Ağdam-1” və “Ağdam-2” yarımstansiyalarının tikintisi yekunlaşıb.



Bunu Ağdam şəhəri daxil olmaqla Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov AZƏRTAC-a açıqlamasında deyib. Bildirib ki, “Ağdam-1” Yarımstansiyası rayon mərkəzinin girişində, “Ağdam-2” Yarımstansiyası isə rayonun Əsgərana yaxın, Şelli kəndi istiqamətində inşa edilib. Bu yarımstansiyalarda rəqəmsal idarəetmə mərkəzi yaradılıb. SCADA dispetçer idarəetmə sisteminə qoşulub. Paralel olaraq fiber-optik kabelin çəkilişi təmin edilib ki, bu da Ağdam şəhərinin yüksəksürətli internet ilə təchiz olunmasına imkan verəcək.

## Türk iş adamları Naftalana sərmayə qoyacaqlar

Türkiyənin tanınmış “Sera Group” şirkətinin əməkdaşları Şükrü Çam, Pul Şener, Yılmaz Samet və Nuçin Zekeriya Naftalan şəhərində olublar.

AZƏRTAC xəbər verir ki, şəhər icra hakimiyyətinin başçısı Vüqar Novruzov qonaqlara dünyada unikal müalicəvi neftə malik olan Naftalan şəhərinin turizm potensialı, eləcə də perspektivlər barədə geniş məlumat verib.

Şirkət rəhbərliyi bölgənin turizm məkanına çevrilməsinə investisiya yatırmaqdan və qardaş ölkəyə fayda verməkdən məmnun olacaqlarını bildiriblər.

## İcmal

Dünya iqtisadiyyatında sənayenin inkişafı mühüm rol oynayır. Xüsusilə XIX-XX əsrlərdə sənayenin inkişafı dünyanın dəyişməsinə və bugünkü vəziyyətə gəlib çatmasına səbəb olub. Aqrar sektor isə uzun illər inkişaf tempinə və kapital qoyuluşuna görə sənayedən geri qalıb. Bu da iki əsas səbəbdən qaynaqlanıb. Birincisi, aqrar sektor gəlirli sahə olmadığı üçün sərmayədarlardan ötrü cəlbedici sayılmayıb. İkincisi, bu sahə mövcud qaydalarla lazım olan tələbatı ödəyib.

# Məhsuldarlığı artırmağın bir yolu da müasir texnologiyalardan istifadədir



Yer kürəsinin əhalisi artdıqca və insanların həyat standartları yüksəldikcə kənd təsərrüfatı məhsullarına olan tələbat artmağa başlayıb. Ərzaq məhsullarına yüksələn tələbat qida məhsullarının qiymətlərinin artmasına da səbəb olub. Məlumdur ki, əhalinin ərzaqla təminatı həssas məsələdir. Odur ki, son dövrlər dünyada bu sektorun inkişafına ciddi diqqət yetirilir. Bir sözlə, indiki halda dünyada aqrar sektor hər bir dövlət üçün strateji əhəmiyyət daşıyır.

Dünyanın inkişaf etmiş bütün dövlətləri aqrar sektorda daha çox məhsul istehsal olunması üçün müxtəlif növ güzəştlər edərək maliyyə dəstəyi verirlər. BMT-nin Ümumdünya Ərzaq Təşkilatının məlumatına görə, son bir neçə ildə beynəlxalq səviyyədə kənd təsərrüfatı məhsullarının qiymətləri sürətlə artmağa başlayıb. Ən çox qiyməti artan məhsullardan biri buğdadır. Çünki bu məhsula tələbat daha yüksəkdir. Bu üzdən buğda dünyada strateji məhsul sayılır, onun satışına dövlətlər tərəfindən nəzarət edilir.

Azərbaycan özünü buğda ilə 58 faizə qədər təmin edə bilir. Dünya dövlətlərinin mövcud imkanlarına diqqət yetirdikdə vəziyyətimiz o qədər də pis deyil. Lakin dövlət bu sahədə mövcud daxili imkanlardan istifadə edərək daha çox məhsul istehsalına nail olmaq istəyir. Belə ki, aqrar sektorda ilk növbədə subsidiyalar və digər güzəştlər taxılçılıqla məşğul olan fermerlərə və fərdi sahibkarlara verilib. Bu fakt dövlətin həmin sahəyə xüsusi önəm verdiyini göstərir.

Dövlət taxılçılığı inkişaf etdirmək məqsədilə kiçik və orta fermerlərə dəstək verməklə yanaşı, iri fermer təsərrüfatları və aqroparkların yaradılmasına da yardımçı olur. Hazırda ölkəmizdə min hektarlarla əkin sahəsinə malik olan 35-ə yaxın aqropark fəaliyyət göstərir. Burada müasir texnika və texnologiyalardan istifadə edildiyi üçün məhsuldarlıq ölkə göstəricisindən çoxdur. Belə ki, ölkə üzrə buğdanın məhsuldarlığı hər hektardan 32,9 sentner olduğu halda, aqroparklarda bu rəqəm 55-60 sentnerdir.

Qarşıdakı illərdə ölkə üzrə digər kənd təsərrüfatı məhsulları kimi buğda istehsalı da artacaq. İşğaldan azad olunmuş ərazilərin imkanlarından istifadə edilməklə buğda istehsalını ölkənin tələbatına yaxınlaşdırmaq mümkün olacaq. Digər tərəfdən, daha məhsuldar sortlardan istifadə etməklə də ölkə üzrə taxıl istehsalını xeyli artırmaq olar. 10 il bundan əvvəlki statistik rəqəmlərlə indiki rəqəmləri müqayisə etdikdə görürük ki, buğda istehsalında məhsuldarlıq xeyli artıb. Lakin ölkə üzrə daha məhsuldar sortlardan az istifadə olunması, milli sortların məhsuldarlıq səviyyəsinin aşağı olması daha yüksək məhsul əldə etməyə imkan vermir. Bu istiqamətdə hələ çox iş görülməlidir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, cari il noyabrın 1-nə kimi qarğıdalı da daxil olmaqla 3317,3 min ton və ya ötən ilin eyni dövrü ilə müqayisədə 4,3 faiz çox dənli və dənli paxlalı bitkiçilik məhsulları, o cümlədən 572,3 min hektar sahədən 1885,4 min ton buğda yığılmışdır. Bitkiçilikdə məhsuldarlıq bütün sahələrdə yüksək olmuşdur. Ən yüksək məhsuldarlıq isə pambıq, kartof, tərəvəz, meyvə və giləmeyvə, üzüm istehsalında qeydə alınmışdır.

Gələn il daha yüksək məhsul götürmək məqsədilə lazımi tədbirlər görülür. Təmiz herik şumu daxil olmaqla cari ilin payızlıq əkinləri üçün 819,7 min hektar sahədə şum aparılmışdır. Növbəti il üçün 350,4 min hektar sahədə dən səpilmişdir ki, ondan 187 min hektarı buğda, 163,2 min hektarı arpa, 0,2 min hektarı isə çovdardır.

Cari ilin yanvar-oktyabr aylarında kənd təsərrüfatında ümumi məhsulun faktiki qiymətlərlə dəyəri 8034,3 milyon manat təşkil etmişdir ki, onun da dəyərinin 3791,1 milyon manatı heyvandarlıq, 4243,2 milyon manatı isə bitkiçilik məhsullarının payına düşmüşdür.

Heyvandarlıqda keçən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-oktyabr aylarında quş əti də daxil olmaqla diri çəkidə ət istehsalı 3,2, süd istehsalı 1,6, yun istehsalı 0,1, barama istehsalı 11,4, yumurta istehsalı isə 3,8 faiz artıb.

Son dövrlər ixracatda kənd təsərrüfatı məhsullarının həcminin artması bu sektorda aparılan islahatların və dövlətin verdiyi dəstəyin nəticəsidir. Cari ilin ixrac strukturunda meyvə və tərəvəzlərin, pambıq lifi və ipliyin, şəkərin, bitki yağlarının, alkoqollu və alkoqolsuz içkilərin payının yuxarı olması da bunu təsdiq edir.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

# Kəndlinin zəhməti hədər getmir

Hazırda kənd təsərrüfatı məhsullarının son yığım dövrüdür. Kəndlilər yetişdirdikləri məhsulun itkisiz və vaxtında yığımını başa çatdırmq üçün əllərindən gələni əsirgəmirlər. Havaların soyuq keçməsinə baxmayaraq, hər gün səhər tezdən sahələrə çıxan əkinçilər məhsul yığımı ilə yanaşı, gələn ilin bol məhsulu üçün də bünövrə qoyurlar.







Digər bölgələr kimi, Tovuzda da yığım mütəşəkkil gedir. Taxıl yığımından sonra tərəvəz və müxtəlif meyvələrin toplanması ilə məşğul olan kənd adamları çalışırlar ki, hər işi vaxtında görsünlər.

Tovuzda qeyri-neft sektorunun aparıcı sahəsi sayılan kənd təsərrüfatının inkişafına ciddi diqqət yetirilir. Onun nəticəsidir ki, cari ilin ötən dövrü ərzində kənd təsərrüfatı məhsullarının ümumi dəyəri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 6,6 faiz artaraq 232476,7 manat təşkil etmişdir. Bu məbləğin 171275,4 min manatı bitkiçilik, 61101,3 min manatı heyvandarlıq məhsullarının payına düşür. Rayonda bitkiçilik sahəsində ən çox əkilən taxıl, kartof, tərəvəz və yem bitkiləridir. Bundan başqa, rayon ərazisində digər texniki bitkilərdən şəkər çuğunduru, tütün, günəbaxan, eləcə də meyvə, üzüm və s. məhsullar da yetişdirilir.

Bu il tovuzlular taxılçılıqda yüksək göstəricilər əldə etmişlər. 2021-ci ilin məhsulu üçün səpilmiş 14000 hektar sahənin 12428 hektarı buğda, 1564 hektarı arpa olmuşdur. Biçin aparılmış 11035 hektar buğda sahəsinin hər hektarından 37,1 sentner olmaqla 40937,2, 1564 hektar arpa sahəsinin hər hektrından 37,9 sentner olmaqla 5930 ton məhsul götürülmüşdür.

Cari il tovuzlular kartof istehsalında da fərqlənmişlər. Rayonda ötən dövr ərzində əvvəlki ilə nisbətən xeyli çox məhsul istehsal edilmişdir. Belə ki, 6238,6 hektardan 179100 ton kartof götürülmüşdür. Qeyd edək ki, əvvəlki illərdən fərqli olaraq builki əkinlərin 90 faizi kənd təsərrüfatı texnikasının köməyi ilə aparılmışdır. Kartofsəpən texnikanın təxminən 100 nəfərin bir həftəyə görə biləcəyi işi bir gündə yerinə yetirməsini nəzərə alsaq, bunun istehsal olunan məhsulun maya dəyərinə nə qədər xeyri dəydiyini təsəvvür etmək çətin deyil.

Rayonda üzümçülüyün inkişafına da böyük maraq göstərilir. Bunun üçün rayonlaşdırılmış üzüm sortlarından ibarət yeni plantasiyaların salınmasına diqqət yetirilir. Həyata keçirilən tədbirlər nəticəsində indi Tovuzda 808 hektar üzüm bağı var və onun 14,5 hektarı bu il salınıb. Üzüm bağlarının 668 hektarı süfrə, 140 hektarı texniki sortlardır. Hazırda bağlarda son salxımlar dərilir. İndiyədək plantasiyalardan 21000 tondan çox məhsul yığılmışdır. Yığılan məhsulun saxlanması və uyğun vaxtlarda satışını təşkil etmək üçün rayonda 8 soyuducu anbar fəaliyyət göstərir. Texniki sortlar isə sərfəli qiymətlərlə rayonda fəaliyyət göstərən emal müəssisələrinə təhvil verilir.

Tovuzda kənd təsərrüfatının digər sahələrində də göstəricilər yüksək olmuşdur. Məsələn, 139,1 hektar bağdan indiyədək 20850,8 ton meyvə, 49,5 hektardan 965 ton giləmeyvə toplanmışdır ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə çoxdur.

Digər sahələrdə də yüksək göstəricilər qazanılmışdır. 1087,3 hektar tərəvəz sahəsinin hər hektarından 208 sentner olmaqla 22620,7, 23 hektar bostan sahəsinin hər hektarından 191,3 sentner olmaqla 440 ton məhsul toplanmışdır.

Artıq 6-cı ildir ki, rayonda tütün əkilir. Əvvəlki illərdən fərqli olaraq bu ildən tütünçülüklə yalnız “Tovuz Aqro Sənaye” MMC məşğul olur. Tütünçülüyün inkişafına dövlət dəstəyinin gücləndirilməsi, bu sahənin potensial imkanlarından səmərəli istifadə və tütün istehsalında iştirak edən əhalinin sosial rifahının daha da yaxşılaşdırılması məqsədilə dövlət başçısının imzaladığı müvafiq sərəncam tütünçülüklə məşğul olan insanlarda böyük stimul yaratmışdır. Bundan əlavə, tütünçülükdə əvvəlki illər mövcud olmuş çətinliklər də aradan qaldırılmışdır. Rayonda tütünqurutma məntəqəsi istifadəyə verilmişdir ki, bu da tütünçülüyün sürətli inkişafına yeni imkanlar açmışdır. Hazırda tütün yığımı davam edir. 100,5 hektar sahədən 86 tonadək məhsul yığılmışdır.

Bu il rayon gümçülərinin də göstəriciləri yüksək olmuşdur. Baramaçılığın inkişafına verilən dəstəkdən tovuzlular da maksimum istifadə etməyə çalışırlar. Cəmi 30-40 gün ərzində çəkdikləri əziyyətin bəhrəsini görən rayon gümçüləri hər il bu sahədən əldə etdikləri gəlirdən razıdırlar. İndi rayon sakinlərinin hansını dindirsən bu gəlirli sahəyə böyük marağı olduğunu söyləyər. Bunun nəticəsidir ki, cari il rayonda 62 nəfər gümçü ümumilikdə 200 qutu barama toxumu götürərək 8124,5 kiloqram məhsul təhvil vermişlər.

Tovuzda daha çox gəlir gətirən sahələrdən biri də istixanalardır. Bu gün rayonda istixanaların sahəsi 44,5 hektara çatmışdır. Sahibkarlar cari il də səmərəli işləyərək hər hektardan 744 sentner olmaqla ümumilikdə 3310 ton məhsul götürmüşlər.

Heyvandarlığa gəldikdə isə, son statistikaya görə, hazırda rayonda qaramalın sayı 46,6 min, davarın sayı 229,8 min başdan çoxdur. Quşçuluqda da vəziyyət qənaətbəxşdir. Belə ki, bu il quşların sayı 50 min baş artaraq 487,6 minə çatmışdır. Ət, süd və yumurta istehsalı nəzərdə tutulduğundan çox olmuşdur.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

## Şuşa Şəhər Dövlət Qoruğunda mərkəzləşdirilmiş elektron sənəd dövriyyəsinin tətbiqinə başlanılıb

Şuşa Şəhər Dövlət Qoruğu İdarəsi Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin “Mərkəzləşdirilmiş elektron sənəd dövriyyəsi” (MESD) proqramının tətbiqinə başlayıb.

Proqram sənədlərin icrasında operativliyin və effektivliyin artması, müvafiq dövlət qurumları ilə rabitənin möhkəmlənməsinə töhfə verəcək. Şuşa Şəhər Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasov AZƏRTAC-a bildirib ki, Şuşa özünün intibah dövrünü yaşayır, şəhərdə irihəcmli infrastruktur layihələri həyata keçirilir, erməni işğalı zamanı dağıdılmış tarixi abidələr bərpa olunur: “Bir çox yerli və xarici şirkətlər Şuşanın bərpasında iştirakdan qürur duyur, amma bu işlərin operativ təşkili, həm dövlət, həm də özəl şirkətlərlə sənəd dövriyyəsinin müasir formada təmin olunması vacib prioritetlərdən birinə çevrilib. Müasir tələblərə cavab verən hər bir təşkilatda sənəd dövriyyəsinin elektronlaşdırılması tapşırıqların icrasının effektivliyini, əməkdaşın iş qabiliyyətini və bacarıqlarını müəyyən edən əsas amillərdən biridir. Bu baxımdan qeyd olunan sahədə böyük təcrübə qazanmış “ASAN xidmət” ilə əməkdaşlığa başlamağımızı vacib mərhələ kimi qiymətləndiririk”.

Noyabr ayının 17-də Elektron Hökumətin İnkişafı Mərkəzinin (EHİM) direktoru Fariz Cəfərov Şuşa şəhərində Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi və Şuşa Şəhər Dövlət Qoruğu İdarəsinin rəhbərliyi və əməkdaşları üçün MESD, “ASAN Login”, “myGov”, İnsan resurslarının idarə olunması sistemi və digər uğurlu layihələr haqqında ətraflı məlumat verib. Təqdimat zamanı Fariz Cəfərov dövlət qurumları tərəfindən göstərilən xidmətlərin “ASAN xidmət” indexi vasitəsilə qiymətləndirildiyini bildirib.

Treninqin sonunda süni intellekt, “Big Data” texnologiyasına artan tələbat və 4-cü sənaye inqilabı dövründə Azərbaycanın çağırışları mövzusunda fikir mübadiləsi aparılıb.

## Salyanda pambıq yığımı davam edir

Salyanda pambıq tarlalarında məhsul yığımı davam edir. “Ağ qızıl” ustaları məhsulu optimal müddətdə və itkisiz yığmağı qarşılarına məqsəd qoyublar.



AZƏRTAC xəbər verir ki, dövlətin pambıqçılığa dəstəyi salyanlı fermerləri təsərrüfatın bu növünə marağını daha da artırıb. Nəticədə bu gün rayon ərazisindəki tarlalarda bol məhsul var. İki aydan artıqdır ki, Salyanda pambıq yığımı davam edir.

Rayonun Ərəbqardaşbəyli kənd sakini, pambıq ustası İbadət Cəfərov ötən il 60 hektar pambıq əkərək 40 sentnerə yaxın məhsul götürüb. Qabaqcıl fermer sahələrdə kombaynlardan başqa əl əməyinə də üstünlük verir. “Bu, rayon sakinlərinin sosial rifahına müsbət təsir göstərir, işsizliyi aradan qaldırır. Fermerlərin çoxu isə maşınla yığıma üstünlük verir. Çünki maşınla pambıq yığımı daha ucuz başa gəlir. Lakin əl ilə yığılan pambığın lifi daha keyfiyyətli olur və baha satılır”, - deyə fermer bildirib.

Fermerin sözlərinə görə, vaxtından əvvəl pambıq yığımı aparmaq məhsuldarlığı aşağı salır. Buna görə də yığım zamanı tələsməmək lazımdır.

Bu il Salyan rayonunda 6135 hektar sahədə pambıq əkini aparılıb. Məhsulun yığılması üçün sahələrə 28 kombayn cəlb olunub. Artıq 18 min 604 ton məhsul yığılaraq tədarük məntəqələrinə təhvil verilib. Rayonda yığım prosesi davam edir. Onu da bildirək ki, Salyanda 4 pambıq şirkəti ilə müqavilə bağlayan 1165 istehsalçı bu il əsasən pambığın “Ağ qızıl”, “Gəncə 108”, “Gəncə 110”, “Lodus”, “Bəyaz Altun” sortlarını əkib.

# Yerlərdə logistikanın səmərəli idarə edilməsi iqtisadi inkişafı şərtləndirən vasitələrdən sayılır

Məlumdur ki, logistika fəaliyyətində nəqliyyat iqtisadiyyatın elə bir sahəsidir ki, onsuz iqtisadi sahələrin formalaşması mümkin deyil. Həm də bu səbəbdəndir ki, rəqabətli, şaxələndirilmiş, dayanıqlı iqtisadiyyatın qurulması üçün Azərbaycanda logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi hazırlanmışdır. Sənəddə göstərilir ki, logistika və ticarət sürətlə qloballaşan dünyada iqtisadi artımın mühüm təkənverici qüvvvəsinə çevrilməklə, əsas sektorda birbaşa xarici investisiya qoyuluşlarının həcmini artırmağa şərait yaradır.



Azərbaycan neft-qaz ölkəsi kimi tanınsa və gəlirlərinin böyük hissəsini karbohidrogen ixracından əldə etsə də, dövlət iqtisadiyyatın şaxələndirilməsi istiqamətində ciddi addımlar atır. Qeyri neft-qaz sənayesinin, o cümlədən kənd təsərrüfatının, alternativ enerjinin, turizmin inkişafina böyük önəm verən ölkəmiz Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat marşrutlarının iştirakçısı, bəzi hallarda isə təşəbbüskarıdır. Bu layihələr Azərbaycanda logistika bazarının inkişafını da şərtləndirir.

Dünyanın ən qabaqcıl təcrübəsinə əsasən logistika mərkəzləri vasitəsilə əlavə dəyər yaradılmasının üç əsas uğur amili vardır. Birincisi, dəyərin yaradılması üçün seçilmiş təchizat zəncirində tarazlaşdırılmış inkişafın daha çox səmərə verməsi nəzərə alınmaqla infrastruktura həddən çox diqqət yetirilməməsidir. Əks halda ticarət üçün zəruri xidmətlərin təminatında çatışmazlıqlar yaranar ki, o da artımı məhdudlaşdıra bilər. Digər tərəfdən, xidmətlərə həddən çox diqqət yetirilməsi infrastruktur çatışmazlığına yol açar. İkincisi, loqistika mərkəzlərinə investisiya qoyuluşları üçün aydın strategiyanın və düşünülmüş planlaşdırmanın olmasıdır. Bu vaxt unutmaq olmaz ki, potensialın və gəlirliyin düzgün hesablanmaması ilkin fəaliyyətə başlamaqda və fəaliyyətin sürətləndirilməsində problemlərə yol aça bilər. O üzdən hərtərəfli düşünülmüş planlaşdırmanın və təfərrüatlı texniki-iqtisadi əsaslandırmanın əhəmiyyəti böyükdür. Üçüncüsü, bir qayda olaraq, logistika mərkəzlərinin tikintisi zamanı bütövlükdə təchizat zəncirinin optimallaşdırılmasını həyata keçirə biləcək mövqedə özəl sektor iştirakçısı olmur. Çünki şirkət səviyyəsində natamam planlaşdırma və optimallaşdırma logistika mərkəzlərinin qurulması mərhələsində səmərəsizliyə yol aça bilər. Odur ki, dövlətin nəzarəti ilə təchizat zənciri komponentlərinin, o cümlədən gömrük və birbaşa xarici investisiyalar bazasının olması logistika sisteminin yaradılmasına və inkişafına təsir edən amillərdən sayılır.

Ümümilikdə götürsək, logistika çoxşaxəlidir. Buraya informasiya və telekommunikasiya texnologiyaları və sistemləri, qlobal kompüter şəbəkələri, elektron biznes, elektron sənədləşmənin idarə edilməsi və s. aiddir. Bu səbəbdən logistikada informasiya axınlarının idarə edilməsi ən vacib məsələlərdən hesab olunur. Çünki logistlər logistik proseslərin idarə olunması ilə baglı daha keyfiyyətli qərarlar qəbul etmək imkanına malikdirlər. Bundan əlavə, tədarük zəncirinə və axınlara nəzarət logistik fəaliyyətdə də mühüm əhəmiyyət kəsb edir. Məhz onun sayəsində təkliflər, satınalma sifarişləri, aylıq planlar, texniki dəyişikliklər üçün tələblər, keyfiyyət şikayətləri, istehsal hesabatları müştəridən təchizatçıya çatdırılır.

Logistika fəaliyyətində müasir anbar idarəetmə sistemləri - keyfiyyətli aftomatlaşdırmanı təmin etmək üçün anbar emalı proseslərinin xüsusiyyətləri mütləq nəzərə alınmalıdır. Məlumat üçün qeyd edək ki, Anbar İdarəetmə Sistemi - WMS( Warenosue Management System) anbarın idarə olunmasında bütün proseslərin avtomatlaşdırılmasını və optimallaşdırılmasını təmin edir. Məhsulun qəbulu, çeşidlənməsi, qalıqların monitorinqi, malların paylanması və toplanması, qablaşdırılması, yerləşdirilməsi, inventarın və əmək resurslarının idarə edilməsi, yük qaldırma avadanlıqlarının avtomatlaşdırılması və s. bu sistemin funksiyasına aiddir.

Sonda onu da vurğulayaq ki, ölkəmizdə aparılan uğurlu iqtisadi islahatlar logistikanın inkişafına geniş imkanlar yaradır. Bu isə gələcəkdə sözügedən sahədə biliklərə daha dərindən yiyələnməyi tələb edir.

***Natiq ALPSOY,***
***ADİU-nun Logistika fakültəsinin magistri***

# Şəhid ailələri və müharibə əlillərinə daha 50 mənzil verilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Bakının Ramana qəsəbəsində şəhid ailələri və müharibə əlillərinə daha 50 mənzil verilib.



Mənzillərin sənədlərini nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin sədr müavini Zaur İbrahimov və "Vətən Müharibəsi Veteranları" İctimai Birliyinin sədri Füzuli Rzaquliyev təqdim ediblər.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Z.İbrahimov Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun möhtəşəm tarixi Zəfər əldə etdiyi Vətən müharibəsindən sonra şəhid ailələri və qazilərin, erməni terrorundan zərər çəkənlərin sosial dəstəklə təminatı işlərini diqqətə çatdıraraq 33 min şəxsin artıq həmin tədbirlərlə əhatə olunduğunu bildirib.

Qeyd olunub ki, şəhid ailələri və müharibə əlillərinə 2021-ci il üzrə 3 min mənzil və fərdi evin verilməsi işləri davam edir. Onlardan artıq 1900 mənzil həmin kateqoriyadan olanlara təqdim edilib. İndiyədək isə 11 min 100 şəhid ailəsi və müharibə əlilinə mənzil və fərdi ev verilib. Dövlət başçısının müvafiq Sərəncamı 2021-2025-ci illərdə daha 11 min mənzil və fərdi evin həmin kateqoriyalardan olanlara verilməsini nəzərdə tutur.

Vətən müharibəsi qəhrəmanlarının, şəhid olanların ailələrinin, həmçinin gözdən əlilliyi olan şəxslərin, dövlət uşaq müəssisələri məzunlarının da mənzillə təminatı işləri davam etdirilir.

F.Rzaquliyev bildirib ki, möhtəşəm Zəfəri bizə yaşadan qəhrəman şəhidlərimizin ailələrinə və qazilərimizə mənzillərin təqdim edilməsinə həsr olunan bu tədbir dövlətimizin hər zaman bu kateqoriyadan olan vətəndaşların yanında olduğunu, onlara dəstək göstərildiyinin daha bir sübutudur.

Mənzillə təmin olunan şəhid ailələri və müharibə əlilləri daim dövlət qayğısı ilə əhatə olunduqlarına, yeni mənzillə təmin edildiklərinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Dövlət Sərhəd Xidmətinin Akademiyasında və Xüsusi Məktəbində Vətən müharibəsi qəhrəmanları ilə görüş təşkil olunub

Dövlət Sərhəd Xidmətinin (DSX) Akademiyasında və Xüsusi Məktəbində Vətən müharibəsi qəhrəmanları ilə görüş təşkil edilib.



DSX-nin Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini yad edərək büstü önünə gül dəstələri düzüblər.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsindən sonra ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Vətən Müharibəsi Qəhrəmanı polkovnik Vüsal Sultanov çıxış edərək özünün və döyüş yoldaşlarının Azərbaycan Prezidenti İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı ilə torpaqlarımızın azad edilməsi uğrunda müqəddəs savaşın iştirakçıları olmaqdan qürur duyduqlarını bildirib.

Vətən müharibəsi zamanı DSX-nin qarşısında Müzəffər Ali Baş Komandanımız tərəfindən qoyulmuş döyüş tapşırıqlarının layiqincə icra olunduğu, istər hava məkanında, istərsə də yerüstü əməliyyatlarda Azərbaycan sərhədçilərinin qəhrəmanlıq və şücaət nümunələri göstərdikləri vurğulanıb, sərhədçilərin keçdikləri döyüş yolu, azad etdikləri ərazilər barədə məlumat verilib.

Tədbirdə çıxış edənlər müharibənin ilk günlərindən sərhədçilərin Füzuli rayonu ərazisindəki təmas xəttindən Ermənistanla dövlət sərhədinədək böyük bir ərazini azad etdiklərini, 24 saat ərzində 105 kilometr məsafədə ildırımsürətli hücumla düşmənə sarsıdıcı zərbələr endirərək yüzlərlə canlı qüvvəsini məhv etdiklərini bildiriblər.

Sərhədçilərin xalqımızın tarixi, milli-mənəvi sərvətinin rəmzi olan Xudafərin körpüsündə, Zəngilan şəhərində və Zəngilanın Ağbənd qəsəbəsində dövlət bayrağını sancdıqları, Ermənistanla sərhəddə Bartaz və Şükürataz strateji yüksəkliklərini azad etdikləri, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları, Hadrut qəsəbəsi və Şuşa şəhərinin düşmən tapdağından təmizlənməsində qəhrəmanlıq və şücaət göstərdikləri vurğulanıb.

Vətənimizin ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş hərbi qulluqçuların göstərdikləri igidlik və fədakarlıqlarından danışılıb, onların əziz xatirələrinin hər zaman ehtiramla yad ediləcəyi və əziz tutulacağı diqqətə çatdırılıb.

Çıxış edənlər qalib xalqımızın şərəfli tarixinin şahidləri olan kursantların gələcəkdə onlara əmanət ediləcək sərhədçilərin qəhrəmanlıq, Vətənə sədaqət ənənələrini layiqincə davam edəcəklərinə əminliklərini bildiriblər.

Xüsusi Məktəbdə keçirilmiş tədbirdə kursantlar tərəfindən Vətən müharibəsinə həsr olunmuş ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

Sonda Vətən müharibəsi qəhrəmanları DSX-nin Akademiyası və Xüsusi Məktəbinin kursant heyəti ilə xatirə fotoşəkli çəkdiriblər.

# Naxçıvanda xüsusi təyinatlı bölmələrin növbəti taktiki-xüsusi təlimi keçirilib

Əlahiddə Ümumqoşun Orduda növbəti taktiki-xüsusi təlim keçirilib. Xüsusi təyinatlı bölmələrin terrorla mübarizə vərdişlərinin təkmilləşdirildiyi təlimi Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev və Türkiyə Respublikası Silahlı Qüvvələrinin nümayəndələri izləyiblər.

Əlahiddə Ümumqoşun Ordunun Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, taktiki-xüsusi təlimin ssenarisinə uyğun olaraq pilotsuz uçuş aparatlarından və digər kəşfiyyat vasitələrindən əldə edilmiş məlumata əsasən, düşmənin xüsusi hazırlıq keçmiş terror qruplaşmaları dinc və sabitlik şəraitində yaşayan insanlara qarşı təxribat törətmək üçün silah-sursat anbarlarına qanunsuz daşıma fəaliyyəti həyata keçirirlər.

Təxribata hazırlaşan terror qruplaşmasının rəhbərinin sağ olaraq ələ keçirilməsi və dinc insanları hədəf alan silah-sursat anbarlarının aşkarlanaraq məhv edilməsi məqsədilə xüsusi təyinatlı bölmələrimiz antiterror əməliyyatına başlayıb.

Xüsusi təyinatlılarımız nəqliyyat-döyüş helikopterlərinin dəstəyi ilə terrorçuların gizləndikləri binaya basqın həyata keçiriblər.

Antiterror əməliyyatlarının icrası zamanı müxtəlif üsul və vasitələrdən istifadə etməklə binaya daxil olan xüsusi həmlə qrupları təxribatçıları zərərsizləşdirməyə davam ediblər.

Yaxın döyüş və atəş üsullarının tətbiqi ilə terrorçuları zərərsizləşdirən xüsusi təyinatlılarımız mülki vətəndaşlarımızı hədəf alan düşmənin silah-sursat anbarlarını aşkarlayaraq partladıblar.

Əməliyyat rayonundan qaçmağa cəhd edən terror qruplaşmasının rəhbəri digər istiqamətdə xüsusi həmlə qrupumuz tərəfindən pusquya salınıb və sağ olaraq ələ keçirilib.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusunun müşahidəçi və təlimatçı qismində iştirak etdiyi təlimin uğurla başa çatması münasibətilə mükafatlandırma mərasimi keçirilib.

Mərasimdə Azərbaycan-Türkiyə dostluq əlaqələrindən və hərbi əməkdaşlığından danışan Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev xüsusi təyinatlı bölmələrimiz tərəfindən 44 günlük Vətən müharibəsində olduğu kimi, təlimlər zamanı da tapşırıqların yüksək peşəkarlıqla icra edilərək, qarşıya qoyulmuş məqsədlərə nail olunduğunu diqqətə çatdırıb.

Sonda hərbi qulluqçulara qiymətli hədiyyələr təqdim edilib.

## *ANAMA:* "Ötən həftə 157 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib"

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan minatəmizləmə əməliyyatları barədə həftəlik məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, noyabrın 15-dən 20-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 25, tank əleyhinə 112 mina və 88 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həftə ərzində 157 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

## *ANAMA:* "Ötən il noyabrın 11-dən bu günədək 6286 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib"

Ötən il noyabrın 10-dan bu il noyabrın 22-dək işğaldan azad edilmiş ərazilərdə minaya düşmələri nəticəsində əsasən mülki şəxslər olmaqla 180-nə yaxın şəxs həlak olub və ya yaralanıb.

AZƏRTAC xəbər verir ki, işğaldan azad edilmiş ərazilərdə keçən il noyabrın 11-dən cari il noyabrın 22-dək ümumilikdə piyada əleyhinə10 min 455, tank əleyhinə 4640 mina, 12 min 637 ədəd partlamamış hərbi sursat aşkarlanıb.

Bu müddətdə ümumilikdə 62 milyon 855 min 782 kvadratmetr (6286 hektar) ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

## *Müdafiə Nazirliyi:* "Azərbaycan Ordusunun Kəlbəcər istiqamətində yerləşən bölmələri tərəfindən hər hansı atəş açılmayıb"

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ordumuzun Kəlbəcər istiqamətində yerləşən bölmələrinin, guya, atəş açması nəticəsində erməni hərbçinin yaralanması ilə bağlı Ermənistan mətbuatında yayılan məlumatları təkzib edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib: "Azərbaycan Ordusunun Kəlbəcər istiqamətində yerləşən bölmələri tərəfindən, guya, atəş açılması nəticəsində bir erməni hərbçisinin yaralanması barədə Ermənistan mətbuatının yaydığı məlumat yalandır.

Bildiririk ki, həmin istiqamətdə bölmələrimiz tərəfindən hər hansı atəş açılmayıb, sakitlikdir".

## *Baş Prokurorluq:* "Vətən müharibəsi iştirakçısının intihar etməsi ilə bağlı araşdırma aparılır"

Baş Prokurorluq Vətən müharibəsi iştirakçısının intihar etməsi ilə bağlı məlumat yayıb.

AZƏRTAC xəbər verir ki, bu barədə mətbuatın sorğusunu cavablandıran Baş Prokurorluğun Mətbuat xidmətinin yaydığı məlumatda bildirilir: "Ağdaş rayonunun Yuxarı Ləki kəndində Vətən müharibəsi iştirakçısı Ülvi İsgəndərovun yaşadığı evdə intihar etməsi ilə bağlı hazırda rayon prokurorluğunda araşdırma aparılır".


*Təkrar*

## Azərbaycan Respublikasının Mərkəzi Bankı açıq tender elan edir

Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq əsas vəsaitlərin və nağd pulun sığortalanması üzrə açıq tender keçirir.

Tender proseduru 22 dekabr 2021-ci il saat 15:00-da Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) keçiriləcəkdir.

İddiaçı qismində Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş qaydada sığorta fəaliyyətinə lisenziyası olan, müvafiq sığorta növlərinin aparılması üzrə rəsmi razılıq almış, müvafiq icbari sığorta növləri üzrə İcbari Sığorta Bürosunun İştirakçısı Sığortaçılarının Reyestrinə daxil edilmiş sığorta şirkəti çıxış edə bilər.

İddiaçının tələb olunan kapitalı Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 04 mart 2020-ci il tarixli 08/2 nömrəli qərarına uyğun olaraq qeyri-həyat sığortası fəaliyyəti üzrə sığortaçılar üçün tələb olunan 5 000 000 (beş milyon) manatdan az olmamalıdır.

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak üçün ərizə;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış) notariat qaydasında təsdiq edilmiş surətləri, bank rekvizitləri;*
- *iddiaçıya Azərbaycan Respublikasında sığorta fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş xüsusi razılığın (lisenziyanın) və əmlakın, o cümlədən nağd pulun yanğından və digər risklərdən sığortalanmasına, nağd pulun daşınması üzrə risklərdən sığortalanmasına dair verilmiş razılığın surəti;*
- *tenderin Əsas şərtlər toplusunda müəyyən edilmiş reytinqə malik olan təkrarsığortaçılar tərəfindən riskin qəbul edilməsini təsdiq edən məlumat. Təkrarsığorta xarici təkrarsığorta şirkəti tərəfindən həyata keçirildikdə xarici təkrarsığorta şirkəti Mərkəzi Bankın müvafiq reyestrinə daxil edilmiş təkrarsığorta şirkəti olmalıdır (təkrarsığorta xarici sığorta brokeri vasitəsilə həyata keçirildikdə də);*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iki nüsxə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi 08 fevral 2022-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin Əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *tenderin Əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını ən geci 21 dekabr 2021-ci il saat 17:30-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 13 dekabr 2021-ci il saat 17:30-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasında Tender komissiyasının əlaqələndirici şəxsinə təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün Mərkəzi Bankın aşağıdakı hesabına 100 (bir yüz) manat məbləğində iştirak haqqı köçürməlidirlər:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesabı: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BIK NABZAZ2C**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Sığorta xidmətinin göstərilməsinə 01 yanvar 2022-ci il tarixdən başlanılır.**
**Sığorta xidmətinin göstərilməsi müddəti: 1 (bir) il.**

Qiymətləndirmə meyarları: qiymət, təklif olunan xidmətlər toplusu üzrə sığorta şərtləri və şərtsiz azadolma məbləğləri.

Tenderdə iştirak etmək istəyən sığorta şirkətləri iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasında Tender komissiyasının əlaqələndirici şəxsindən tenderin Əsas şərtlər toplusunu əldə edə bilərlər.

Tender üzrə əlaqələndirici şəxslər:
Elvin Şirdanov (Hüquq departamenti), telefon: 493-11-22 (dax.tel: 428), elektron poçt ünvanı: **elvin_shirdanov@cbar.az**
Ceyhun Səməndov (İnzibati departament), telefon: 493-11-22 (dax.tel: 599), elektron poçt ünvanı: **ceyhun_samandov@cbar.az.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Lənkəran Dövlət Universiteti tərəfindən 27 sentyabr 2021-ci il tarixdə **www.etender.gov.az** portalında və 28 sentyabr 2021-ci il tarixli "Azərbaycan" qəzetində dərc olunmuş cari təmir işləri üzrə açıq tender (e-tender) Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən 19 noyabr 2021-ci il tarixli AİBND10-15/02-5/8912P nömrəli məktubla ləğv olunmuşdur.

***Tender komissiyası***

## Lənkəran Dövlət Universiteti açıq tender (e-tender) elan edir

LOT-1. Cari təmir işləri

Lənkəran Dövlət Universiteti büdcədənkənar vəsaiti hesabına açıq tender metodu tətbiq etməklə elektron satınalma vasitəsilə cari təmir işlərinin satın alınmasını həyata keçirir.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq öz tender təkliflərini **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

İddiaçılar **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

İddiaçılar aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba "ASAN ödəniş" sistemi ilə köçürdükdən sonra Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı LOT-1 üzrə 190 (bir yüz doxsan) manat**
**Lənkəran Dövlət Universiteti**
**Hesab №: AZ97AIIB33080019443870045138**
**VÖEN: 2600135481**
**"Kapital Bank" ASC-nin Lənkəran filialı**
**Kod: 200383**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. BIK AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *iddiaçının son bir ildəki (əgər daha az müddətdə fəaliyyət göstəribsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayışı;*
- *nizamnaməsi;*
- *qeydiyyatdan keçdiyi ölkə;*
- *rekvizitləri.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 13 dekabr 2021-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə 21 dekabr 2021-ci il saat 18:00-a qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı 22 dekabr 2021-ci il saat 17:00-da dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Əlilliyi olan şəxslərə sanatoriya-kurort putyovkalarının (yollayışların) alınması" adlı təkrar, "Sağlamlıq imkanları məhdud uşaqların inkişafının təmin olunması və monitorinqi sahəsində innovativ təşəbbüslərin həyata keçirilməsi", "Sağlamlıq imkanları məhdud uşaqların (autizm, serebral iflic) sosial-reabilitasiyası ilə bağlı valideynlərin bacarıqlarının artırılması üzrə innovativ təşəbbüslərin həyata keçirilməsi" adlı müsabiqələr keçirir.

**Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.**
**İştirak haqqı yoxdur.**

Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti 1965, "Çinar Park" Biznes Mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 29 noyabr 2021-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

**Müsabiqə 30 noyabr 2021-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.**
**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5037)**

***Müsabiqə komissiyası***

MİDA

# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin növbəti layihəsi – Gəncə Yaşayış Kompleksində mənzillərin güzəştlə satışı barədə ELAN

Gəncə şəhəri, Azərbaycan Bayrağı küçəsində yerləşən Gəncə Yaşayış Kompleksinin 8 saylı binası üzrə 33, 9 saylı binası üzrə 34, 10 saylı binası üzrə 11, 11 saylı binası üzrə 14, 12 saylı binası üzrə 15, 15 saylı binası üzrə 44 və 18 saylı binası üzrə 37 mənzilin, ümumilikdə 188 mənzilin satışı 23 dekabr 2021-ci il tarixində saat 11:00-da başlayacaq və 30 dekabr 2021-ci il tarixi saat 11:00-dək davam edəcəkdir.

"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun olaraq **gözləmə qaydasında mənzillərin seçimi** 27 dekabr 2021-ci il tarixində saat 11:00-da başlayacaq və 30 dekabr 2021-ci il tarixi saat 11:00-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalı üzərində (**www.e-gov.az**) "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq, mənzillərin seçimində bərabər hüquqa malikdir.

"Güzəştli mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla **www.mida.gov.az** və **www.mida.az** internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.

## Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa ümumilikdə 188 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bütün binalar Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin 02.03.2020-ci il tarixli 29004, 17.12.2019-cu il tarixli 28607 nömrəli müsbət rəyləri mövcuddur.

**Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 3 saylı Gəncə Ərazi İdarəsi tərəfindən mənzillərə mülkiyyət hüquqlarına dair "hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış"lar verilmişdir.**

| Bina № | Binanın yerləşdiyi tikinti sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 8 | 565,92 | 12 | 1 | 3 | 33 | 75,83 - 76,79 | 89,52 - 90,96 | "Araz İnşaatçı" MMC / Bakı şəhəri, Nərimanov rayonu, Həsənoğlu küçəsi, məhəllə 851, mənzil 10/86 | 12.11.2021 |
| 9 | 565,92 | 12 | 1 | 3 | 34 | 75,83 - 76,79 | 89,52 - 90,96 | | |
| 10 | 797,21 | 9 | 2 | 4 | 11 | 96,1 - 96,67 | 111,31 - 111,37 | "Hünər-İnşaat" Firması / Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev 97, mənzil 63 | 27.08.2021 |
| 11 | 797,21 | 9 | 2 | 4 | 14 | 96,1 - 96,67 | 111,31 - 111,37 | | |
| 12 | 797,21 | 9 | 2 | 4 | 15 | 96,6 - 96,67 | 111,37 | | |
| 15 | 565,92 | 12 | 1 | 3 | 44 | 75,17 - 76,79 | 89,52 - 90,96 | "GM Construction" MMC ("Faktor Qrup-S" QSC ilə konsorsium) / Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, ev 189 | 12.11.2021 |
| 18 | 781,84 | 9 | 2 | 2 | 28 | 56,78 - 56,84 | 68,34 - 68,57 | "HN Construction" QSC / Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şossesi, ev 185, m. 14 | 12.11.2021 |
| | | | | 3 | 9 | 74,73 - 74,78 | 87,05 | | |

## Satış şərtləri və qiymətlər:

Bu elan çərçivəsində mənzillərin satışı həm **ipoteka kreditindən istifadə etməklə**, həm də **öz vəsaiti hesabına** ödəniş üsulu ilə nəzərdə tutulmuşdur.

***Qeyd:*** *"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 5.6-cı bəndinə əsasən mənzilin dəyərinin* ***ipoteka krediti hesabına ödəniş üsulunu yalnız ilkin razılıq qərarını alaraq elektron kabinetində yerləşdirilməsini təmin etmiş şəxs seçə bilər.***

2 otaqlı mənzillərin qiyməti – **48 263** manatdan,
3 otaqlı mənzillərin qiyməti – **63 521** manatdan,
4 otaqlı mənzillərin qiyməti – **81 685** manatdan başlayır.

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Vətəndaş mənzili Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda:

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | | |
|---|---|---|---|---|---|
| | | | *2 otaqlı* | *3 otaqlı* | *4 otaqlı* |
| 4% | 3-30 il | 10% | **207-208 manat** | **273-281 manat** | **351-353 manat** |
| * Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda. | | | | | |

**DİQQƏT! Mənzilə güzəştli ipoteka krediti vasitəsilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğə görə, mənzilin satış qiymətini tam həcmdə öz vəsaiti hesabına birdəfəlik ödəyən vətəndaş isə bütün məbləğə əlavə 10% endirim əldə edəcək.**

**Mənzilə öz vəsaiti hesabına birdəfəlik ödəniş edərək sahib olmaq istəyən vətəndaş üçün mənzillərin satışı aşağıdakı qiymətlərdən başlayır:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| 2 | 48 263 | 4 826 | **43 437** |
| 3 | 63 521 | 6 352 | **57 169** |
| 4 | 81 685 | 8 168 | **73 517** |

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Gəncə Yaşayış Kompleksinin **www.gence.mida.gov.az** internet səhifəsinə daxil olaraq satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti, tətbiq edilən güzəştlər və əlavə endirimlər, agent banklar haqqında məlumatla tanış olmaq, habelə ipoteka və güzəştli mənzil kalkulyatorları vasitəsilə müvafiq hesablamalar aparmaq mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması qaydası, gözləmə qaydasında mənzillərin seçimi və mənzillərin satış şərtləri, agent banklar barədə ətraflı məlumatla **www.mida.gov.az** və **www.mida.az** internet səhifələrində və ya müvafiq "ASAN xidmət" mərkəzlərinə (1, 3, 5 saylı, Sumqayıt və Gəncə), habelə "108" çağrı mərkəzinə müraciət edərək tanış ola bilərlər.

***Qeyd:*** *"Güzəştli mənzil" sisteminin istifadəçiləri satış modulundan istifadəyə dair və gözləmə qaydasında mənzil seçiminə dair təlimatlar ilə öz elektron kabinetlərinin müvafiq bölmələrində və ya* ***www.mida.gov.az*** *və* ***www.mida.az*** *internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış ola bilərlər.*

**2003-CÜ İL VİRCİN ADALARI MÜFLİSLİK HAQQINDA QANUNA**

**VƏ**

**ARAN OIL OPERATING COMPANY LIMITED (LƏĞV ETMƏ PROSESİNDƏ OLAN)**
**ŞİRKƏT NÖMRƏSİ: 1918083**

**UYĞUN OLARAQ**

**BİLDİRİŞ** verilir ondan ötrü ki, Müflislik haqqında Qanunun 159(2) bölməsinə uyğun olaraq, Tropic Isle Building, Nibbs küçəsi, Road Town, Tortola VG 1110, Britaniya Vircin Adaları ünvanında yerləşən Baker Tilly (BVI) Limited şirkətinin əməkdaşı John J.Greenwood şirkətin üzvlərinin 16 noyabr 2021-ci il tarixli əsaslandırılmış qərarı ilə Aran Oil Operating Company Limited ("Şirkət") şirkətinin təsviyəçisi təyin edilmişdir.

**BİLDİRİŞ** verilir ondan ötrü ki, 2003-cü il Müflislik haqqında Qanunun 179(1) bölməsinə uyğun olaraq, Qanunun 179(3) və (4) bəndlərində nəzərdə tutulmuş məqsədlər üçün Şirkətin kreditorlarının yığıncağı 7 dekabr 2021-ci il saat 10.00-da Baker Tilly (BVI) Limited şirkətinin Tropic Isle Building, 2-ci mərtəbə, Nibbs küçəsi, Road Town, Tortola VG 1110, Britaniya Vircin Adaları ünvanında yerləşən ofislərində keçiriləcək. Etibarlı şəkildə doldurulmuş etibarnamə forması və iddiası alındıqdan sonra görüş üçün uzaqdan giriş təfərrüatları təmin ediləcək.

Bu yığıncaqda iştirak etmək və səs vermək hüququ olan istənilən kreditor bunu şəxsən və ya etibarnamə ilə edə bilər. Kreditorlar 6 dekabr 2021-ci il saat 00.00-dan gec olmayaraq, kuryer vasitəsilə yuxarıda göstərilən ünvanda və ya e-poçt vasitəsilə mbroomhall@bakertilly.vg Baker Tilly (BVI) Limited şirkətinə səsvermə məqsədləri üçün doldurulmuş etibarnamə formalarını və iddialarının təfərrüatlarını təqdim etməlidirlər. İddia və etibarnamə formaları təsviyəçidən əldə edilə bilər.

Yığıncaqda müzakirəyə çıxarılacaq qərarlara təsviyə komissiyasının təyin edilməsi haqqında qərar daxil edilə bilər. Yığıncaqda qərar qəbul etmək üçün tələb olunan səs çoxluğu şəxsən və ya etibarnamə ilə iştirak edənlərin iddialarının dəyərinə görə 50%-dən az olmamalıdır.

Tarix: 16 noyabr 2021-ci il

**John J. Greenwood**
**Təsviyəçi**

Əlaqə məlumatları: Baker Tilly (BVI) Limited
Əlaqəli şəxsin adı: Mark Broomhall
Telefon: + (1) 284 852 2590
Email: mbroomhall@bakertilly.vg

## Dünya gündəmi

# Devrilmiş Baş nazir vəzifəsinə qayıtdı

### Sudanda yeni keçid hökumətinin yaradılması haqqında saziş imzalandı

Oktyabrın 25-dən ev dustağı olan Sudanın Baş naziri Abdallah Həmduk vəzifəsinə bərpa edilərək Xartumdakı hökumət sarayına qayıdıb.

Rəsmi məlumata görə, Sudanın Suveren Şurası və öz vəzifələrinin icrasına qayıdan Baş nazir Abdallah Həmduk yeni keçid hökumətinin yaradılması haqqında siyasi saziş imzalayıblar. Sazişlə Həmdukun vəzifədən kənarlaşdırılması haqqında qərar ləğv edilib. General Abdulfəttah Burxan həmçinin 14 üzvdən ibarət Suveren Şuranı bərpa edib və özünü onun rəhbəri təyin edib.

Sənəd ötən ayın 25-də törədilmiş hərbi qiyamdan sonra ölkədəki hakimiyyət böhranına son qoymalıdır.

İmzalanma mərasimi paytaxt Xartumdakı Prezident sarayında keçirilib. Suveren Şuranın rəhbəri general Abdulfəttah Burxan və ötən ay hərbçilər tərəfindən devrilmiş Baş nazir Abdallah Həmduk müvafiq sənədə imza atıblar. Bundan əvvəl isə Burxan Həmduku Baş nazir vəzifəsinə qaytarıb.

Həmduk 2019-cu ildə devrilmiş Ömər Bəşirin prezidentliyi dövründəki hakim Milli Konqres Partiyasından başqa, ölkədəki bütün siyasi qüvvələrlə məsləhətləşmələrdən sonra hökuməti formalaşdıracaq. Yeni hökumətin tərkibinə müstəqil texnokratların daxil olacağı bildirilir.

Saziş çərçivəsində Həmduk Nazirlər Kabinetini mülki şəxslərdən formalaşdıra biləcək, lakin Burxan onunla birlikdə 2019-cu ildən ölkənin demokratikləşdirilməsi prosesinə nəzarət edən rəhbər orqana - Suveren Şuraya daxil olacaq.

Hərbçilər və Həmduk bir sıra məsələlər, o cümlədən bütün siyasi məhbusların azad edilməsi ilə bağlı razılığa gəliblər.



### Etirazlar davam edir

Hərbi qiyama qarşı etiraz aksiyaları hələ də bütün ölkə ərazisində davam edir. Çevrilişdən əvvəl keçid hökumətinə daxil olan vətəndaş partiyaları hərbçilərlə danışıqlara getmir və onlarla hər hansı əməkdaşlıqdan imtina edirdilər. Noyabrın 21-də minlərlə nümayişçi Xartumun mərkəzinə yürüş edərək qiyamçıların lideri general Burxanın istefasını tələb ediblər.

Xatırladaq ki, oktyabrın 25-də general Abdulfəttah Burxan xalqa müraciət edərək, Sudanın hakimiyyət orqanlarını buraxdığını, ölkədə fövqəladə vəziyyət tətbiq edildiyini bildirib. Sudanda hakimiyyətin ələ keçirilməsi ölkədə kütləvi etiraz aksiyalarına səbəb olub. Xüsusilə Sudan Həmkarlar İttifaqları Assosiasiyası xalqı ümumi tətil və vətəndaş itaətsizliyinə çağırıb. Xartumda on minlərlə insan bu çağırışa cavab olaraq istehkamlar qurmağa, hərbçilərin hökumətdən çıxmasını və demokratik islahatları tələb etməyə başlayıb. Paytaxtdakı toqquşmalar nəticəsində ən azı 15 nəfər həlak olub. Sudanın Həkimlər Mərkəzi Komitəsinin məlumatına görə, hərbçilərin kütləvi etirazları boğmaq cəhdləri nəticəsində ölkədə 41 nəfər öldürülüb.

### Beynəlxalq ictimaiyyətin reaksiyası

Sudandakı çevriliş Qərb ölkələrində böyük əks-səda doğurub. Xatırladaq ki, hələ çevrilişdən dərhal sonra ABŞ və Avropa İttifaqı ölkələri rəhbərləri Baş nazir Abdallah Həmdukla görüşməyi tələb edirdilər.

Oktyabrın sonunda BMT Təhlükəsizlik Şurası hərbçiləri "ilkin şərtlərsiz" siyasi dialoqu bərpa etməyə, saxlanılan şəxsləri dərhal azad etməyə və insanların dinc toplaşmaq hüququna hörmət etməyə çağırıb.

General bildirib ki, Sudanda əhalinin bütün təbəqələrinin maraqlarını təmsil edən müstəqil texnokratlar hökuməti formalaşacaq.

Sudan ordusu qiyam zamanı saxlanılan dörd siyasətçini azad edib. Yerli KİV-in məlumatına görə, bunlar Baş nazirin müavini Yasir Ərman, Sudan Konqresi Partiyasının sədri Ömər Digeyr, Umma Milli Partiyası sədrinin müavini Siddiq Sadiq Mehdi, həmçinin "BƏƏS" Ərəb Sosialist İntibah Partiyasının sədri Əli Reyah Sanxuridir.

Türkiyə, Avropa İttifaqı, Afrika İttifaqı, Kanada, ABŞ, Böyük Britaniya, Norveç və ərəb ölkələrinin əksəriyyəti Baş nazir Abdallah Həmduk ilə Sudan Ordusunun generalı Abdulfəttah Burxan arasında razılaşmanı alqışlayıb.

Bununla belə, Sudan Həmkarlar İttifaqları Assosiasiyası, hökumətin sabiq tərəfdaşı olan "Azadlıq və dəyişikliklər uğrunda qüvvələr" və Kommunist Partiyası kimi daxildəki siyasi qüvvələr sənədi tanımayıblar.

Qeyd edək ki, Sudan təxminən 30 il ərzində Ömər Bəşir tərəfindən idarə edilib. O, 2019-cu il aprelin 11-də kütləvi etiraz aksiyaları fonunda baş vermiş hərbi qiyam nəticəsində devrilib. Bundan sonra ordu və vətəndaş müxalifəti keçid hökumətinin formalaşdırılması barədə razılığa gəliblər. 2019-cu il avqustun 21-də ölkənin yeni rəhbər orqanı - Suveren Şura yaradılıb. Bu orqana Abdulfəttah Burxan, keçid hökumətinə isə Abdallah Həmduk başçılıq ediblər.

Ötən ayın 25-də general Burxanın başçılıq etdiyi hərbçilər Sudanda hakimiyyəti ələ keçirdilər və ölkədə fövqəladə vəziyyət elan etdilər. Qiyamçıların lideri keçid hökumətinin və Suveren Şuranın buraxıldığını bəyan edib, hərbçilərin ölkənin vətəndaş hökuməti seçilənə qədər demokratiyaya keçid prosesini davam etdirəcəklərini bildirib, Sudanın Aİ-dəki diplomatik nümayəndəsini, ABŞ, Çin, Fransa və Qətərdəki səfirləri, həmçinin Cenevrədəki Sudan missiyasının rəhbərini öz vəzifələrindən kənarlaşdırıb.

Yeni seçkilər 2023-cü ilin iyuluna təyin edilib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Ali Məhkəmənin əməkdaşı Röyal Şükürova anası
**AİDƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Ali Məhkəmənin əməkdaşı Nüşabə Fətullayevaya anası
**SOLMAZ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Məlikə Sultanova, Əhməd Axundov və Gülzar Əhmədova Azərbaycanın Əməkdar incəsənət xadimi
**ASYA BAXIŞ QIZI SULTANOVANIN**
vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Yuxarı Şirvan Kanalı İstismar İdarəsinin rəisi
**İLYAS SƏFƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Vəkillər Kollegiyası Bakı şəhəri 3 saylı Vəkil Bürosunun kollektivi büronun müdiri
**SAHİB ABDULLA OĞLU CƏLİLLİNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5590
Sifariş 2401
Qiyməti 40 qəpik